KLASSİK AZƏRBAYCAN ƏDƏBİYYATI

# Vidadi

## Əsərləri

MOLLA VƏLİ VİDADİ

# ƏSƏRLƏRİ

"ÖNDƏR NƏŞRİYYAT"
BAKI-2004

*Bu kitab “**Vidadi. Əsərləri”** (Bakı, Azərnəşr, 1977) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Tərtib edəni: Həmid Araslı

Ön sözün müəllifi və redaktoru: Əlyar Səfərli

894.3611 - dc 21
AZE
**Molla Vəli Vidadi.** Əsərləri. Bakı, “Öndər nəşriyyat”, 2004, 128 səh.

XVIII əsrdə şifahi xalq şeri tərzində yazan şairlər içərisində Molla Vəli Vidadi mühüm yer tutur. Vaqifin böyük müasiri olan görkəmli sənətkarın əsərləri dövrün ədəbi mənzərəsini başa düşmək baxımından daha aydın təsəvvür yarada bilir.

Təxminən 80 ilə yaxın yaradıcılıqla məşğul olmuş Vidadinin zəngin ədəbi irsi pərakəndə halda olduğundan şairin əsərləri ayrı-ayrı əlyazmalardan toplanılmışdır.

ISBN 9952-416-25-2

© “ÖNDƏR NƏŞRİYYAT”, 2004

# ÖN SÖZ

XVIII əsr Azərbaycan ədəbiyyatı tarixində Molla Vəli Vidadinin özünəməxsus yeri vardır. Onun məhəbbət və insanpərvərlik lirikası, tarixi mövzuda yazdığı "Müsibətnamə" əsəri öz ideya məzmunu və bədii gözəlliklərinə görə fərqlənir. Şairin aşıq şeri və klassik poeziya üslubunda yaratdığı qoşma, gəraylı, bayatı, qəzəl və müxəmməsləri fikir-məna aydınlığı və sənətkarlıq məziyyətləri etibarilə çox səciyyəvidir. Qüdrətli sənətkar olan Vidadi ədəbiyyatımızın hər iki qoluna məxsus ənənələri öz şerində yaşadaraq vəhdətdə almış, canlı xalq dilində əsərlər qoyub getmişdir. Onun gözəl fikir və incə zövq nümunəsi olan şeirləri Azərbaycan xalqının keçirdiyi tarixi qəm və kədərinin tarixidir. Bu dərd, kədər Vidadi yaradıcılığında müdrik ifadə formasını taparaq, ictimai-fəlsəfi yüksəkliyə qaldırılmışdır.

Molla Vəli Vidadi 1709-cu ildə Şəmkirdə anadan olmuşdur.

Şairin uşaqlığı və ilk gəncliyi də orada keçmişdir.

Atası Məhəmməd ağa zəmanəsinin qabaqcıl və savadlı adamlarından biri idi. Belə bir ailədə böyüyən Vidadi də uşaqlıqdan mükəmməl təlim-tərbiyə almışdır.

Atasının ölümündən sonra şair Şəmkiri tərk edib Qazağa gedir və orada Şıxlı kəndində yaşamağa başlayır. Dərin biliyi, istedadı və xoş xasiyyətinə görə Qazaxda az bir zamanda böyük nüfuz qazanır. Vidadi evləndikdən sonra isə həmişəlik Şıxlı kəndində yaşayır.

Vidadinin, zəmanəsinin məşhur şairi kimi şöhrət tapması saraylara da gedib çatır. Şair bir müddət Qarabağda Gülüstan xanlığı sarayında, sonra isə Gürcüstanda II Iraklinin sarayında yaşamışdır. Vidadi öz dostu Vaqifə yazdığı bir şerində də bunu təsdiq edir. Ancaq Vidadini hansı səbəbdənsə orada tutub həbsə salırlar. O, həbsdə ikən "Könül həsrət, can müntəzir, göz yolda" misrası ilə başlayan məşhur şerini yazaraq xanlara, sultanlara dərin nifrətini bildirir. Bu şeir Vaqifin ağır, məşəqqətli günlərdə yazdığı "Bax", "Görmədim" şeirləri ilə səsləşir.

Hər üç şeir feodal dünyasını ittiham edən, ictimai qayəsi və məzmunu etibarilə seçilən ölməz sənət inciləridir.

Vidadi bu qoşmasında fitnə-fel yuvası olan zəmanəsini qəzəblə qamçılayır, xanından, sultanından uzaqda asudə, sərbəst yaşamağı arzulayır.

Şeir həmin dövrdə Vidadinin əhvali-ruhiyyəsini, şairanə düşüncələrini tam əks etdirir, yaşadığı mühitdə orta əsr həyatına, onun insanlarına, hakimlərinə münasibətini aydınlaşdırır. Vidadi mərd, ürəyiaçıq insanlarla dostluq etməyi uca tutur, sultanlara, xanlara xidmət etməyi özünə sığışdırmır. Buna görə də 1781-ci ildən sonra II Iraklinin sarayını tərk edib Qazağa qayıdır və ömrünün sonuna qədər orada yaşayır. Onun şeirlər divanı, külliyyatı bizə çatmasa da, yüz il yaşayan şairin az bir həcmdə əsərlər yazmağına inanmaq çətindir. Əksinə, Vidadi ömrü boyu bədii yaradıcılıqdan əl çəkməmiş, gözəl, mənalı şeirləri ilə müasirlərinin dərin rəğbətini qazana bilmişdir. Onun Vaqiflə "Deyişmə"si də bunu aydın göstərir.

XVIII əsrdə yaşamış bir sıra şairlər, ziyalılar və dövlət xadimləri Vidadi ilə yaxınlıq etmiş, onun şəxsiyyətinə, yaradıcılığına xüsusi ehtiram göstərmişlər. Ədəbiyyatşünas F.Köçərli bu barədə belə yazırdı: "Molla Vəli Vidadinin yaxşı elmi, savadı və rəvan təbi var imiş. Və özü də zöhdü təqva əhli olub, vaxtının çoxunu ibadətdə keçirərmiş. Haqq söyləyən və haqqı dost tutan bir vücud imiş ki, hər kəsin eybini açıq söyləməkdən dilgir və rəncidə olanların ədədi az deyil imiş. Amma bununla belə hamı onu sayarmış, xatirini əziz və möhtərəm tutarmış".

Şairin öz müasirlərindən Molla Pənah Vaqif, Şəki xanı şair Hüseyn xan Müştaq və başqaları onun ən səmimi dostları sayılırdı. Onların dostluğu əqidə, məslək dostluğu idi. Vidadi onlara mənzum məktublar yazır, şeirləşir, deyişir, dərdini dostları ilə bölüşərək onlara ağıllı məsləhətlər verirdi. Vidadi və Vaqifin yaxın qohum olduğunu yazanlar da vardır. Hər halda iki şairin dostluğu ömrü boyu davam edərək bütün sınaqlardan çıxıb möhkəmlənmiş və hər ikisinin yaradıcılığında dərin iz buraxmışdır.

Onların "Deyişmə"si də bu səmimi, gözəl, təmənnasız dostluğun və məsləkdaşlığın bədii ifadəsi kimi mənalı səslənirdi.

Şairin həyatının son illəri kədərli keçir. Onun cavan oğlu birdən-birə ölür. Daha sonra isə Vaqifin və Hüseyn xan Müştaqın faciəli ölümü Vidadini çox kədərləndirir.

Vidadi 1809-cu ildə Şıxlı kəndində vəfat etmiş və Gəmiqaya adlı yerdə dəfn olunmuşdur.

***

Şairin yaradıcılığı, dünyagörüşü Azərbaycan şifahi və yazılı ədəbiyyatı əsasında təşəkkül tapmışdır. Hər ikisindən baş alan ənənələr Vidadi şerində yeni məna qazanır.

O həm qoşma, gəraylı, bayatı, həm də qəzəl, müxəmməs formasında şeirlər yaradır. Şairin hər iki üslubda yazdığı şeirlərdə məhəbbət və insanpərvərlik motivləri xüsusi yer tutur. O, yüksək sənətkarlıq məharəti ilə orta əsr insanı, onun əxlaqi-mənəvi gözəlliklərini qələmə alır, müasirlərinin həyatı və taleyi haqqında düşüncələrə dalır. Buna görədir ki, Vidadi yaradıcılığında dərin bir kədər vardır. O, qəriblik, qürbət, ayrılıq mövzularında yazır, əsrin ictimai-siyasi hadisələrinin, xanlıqlar dövrü ziddiyyət və faciələrinin şair qəlbində oyatdığı duyğuları əks etdirir.

Əlbəttə ki, Vidadinin kədəri ictimai kədər idi, dünyəvi, bəşəri səciyyə daşıyırdı, onun həyata, orta əsrlər dünyasına münasibətinin özünəməxsus forması idi. Onun kədəri insana məhəbbətin, qayğının yeni bir təzahürü kimi mənalı səslənirdi. XVIII əsrdə xalqımız Vaqif şerində bir anlıq müstəqillik və sərbəstliyindən sevinir, Vidadi şerində isə tarixi faciəsinə göz yaşı axıdırdı. Vaqiflə Vidadinin məşhur "Deyişmə"sindən də bunu görmək mümkündür.

Bu deyişmə-dərdləşmə və ədəbi mübahisədə sevinc ilə kədər, nikbinliklə bədbinlik, əqli-ürfani ucalıqla dünyəvi eşq qarşılaşır. Bu deyişmə iki dünyagörüşün, iki zövq və bədii-estetik idealın təzahür forması kimi daha çox səciyyəvidir. Hər iki şairin dünyaya, həyata, insana, doğ-

ma yurda, həyatın maddi və mənəvi gözəlliklərinə münasibəti kimi canlanır. Vidadi Vaqifdən fərqli olaraq dərdli, qəmlidir, qəlbi sınıqdır, ürəyi kövrək və bədbindir. Vidadi Məcnun kimi dərd, kədər üçün sanki dünyaya gəlmiş, qəmli nəğmələr yaradıb məzlumların, qəriblərin, bikəslərin halına qalmaq, arzu və diləklərini əks etdirmək üçün şair olmuşdur.

Vidadi hətta Vaqiflə eyni mövzuda şeir yazanda da ("Durnalar" qoşması) öz dünyagörüşünə, bədii ənənəvi üslubuna sadiq qalır, şux, nikbin deyil, qəmli şeirlər yazır.

Şairə görə, bu zəmanədə nəinki insanlar, hətta dilsizağızsız durnalar da kədərlidir, qərib-qərib, qəmgin-qəmgin ötərək həzin nəğmələr oxuyur, şadlanmırlar. Durnalar da insanlar kimi qəmlidir, ona görə də şair durnaların şirin-şirin nəğmələrini dinlədikcə kədərlənir. Vidadi rəmzi məna daşıyan "Durnalar" şeri ilə öz dövrünə etirazını çox ustalıqla, sənətkarlıq məharəti ilə bildirir.

XVII–XVIII əsrlərdə həm yazılı, həm də şifahi ədəbiyyatda qürbət şeirləri yazılırdı. Vətən və qürbət anlayışları məhdud şəkildə başa düşülsə də, hər halda bu ruhda yazılmış şeirlər ictimai duyğu və düşüncələrin ifadəsinə çevrilir, onlarda şair-vətəndaşın könül çırpıntıları, hiss və həyəcanları duyulurdu. Qürbət şeirləri Vidadi yaradıcılığında da çox mənalı səslənirdi. Şair bu mövzuda yaratdığı şeirlərdə qürbətdən şikayətlənsə də, onların əsasında vətən və el məhəbbəti durur.

Vidadinin kədəri fərdi səciyyə daşımır, tarixi-ictimai zəminlə bağlı olan, həyatın özündən gələn bir kədər idi.

Daha dəqiq desək, Vidadinin dərdi zəmanənin dərdi, elinulusun dərdi, doğma yurdunun, onun insanlarının dərdi idi və qəriblərin, bikəslərin, məzlum insanların tarixi faciəsindən irəli gəlirdi. Vətənin daş-qayalarının da od tutub yandığı bir vaxtda vətəndaş-şair xalqın dərdinə, halına yanaraq kədərlənirdi. Çünki XVIII əsrdə Azərbaycan ayrı-ayrı xanlıqlara bölünmüşdü, xanlar hakimiyyət üstündə gecə-gündüz mübarizə aparır, yarımmüstəqillikdən istifadə edərək el-obanı qırğına verir, min cür fitnə-fəsad törədirdilər.

Xalqın faciəsini, həmdəmlərinin ah-naləsini dərk edən şairin qəlbi bir an da olsa açılmır. Yüz min günəş də olsa onun “yaralanmış və paralanmış” könlünü işıqlandıra bilmir, çünki o öz vətənindən, dostlarından ayrı düşmüş, zəmanə onu dürlü-dürlü odlara salmış, vəfasız, namərd insanlara möhtac etmişdir.

Vidadinin lirik qəhrəmanı dərd əhli, könül aşinası və vəfalı bir aşiqdir. Onun qəlb aləmi çox zəngin və işıqlıdır.

Bu aşiqin daxili-mənəvi gözəllikləri, bulaq suyu kimi saf mənəviyyatı, yüksək arzu və diləkləri oxucunu daima düşündürür.

Vidadinin şeirlərində lirik qəhrəmanla sənətkarın öz obrazı sanki birləşir, nəcib qəlbi və ruhu ilə ucalan aşiqin timsalında Vidadinin nurlu, həlim təbiətini, öz parlaq simasını görürük.

Vidadinin qoşma və gəraylılarında ictimai düşüncələr çox qüvvətlidir. Bu şeirlərin qəhrəmanı olan aşiqi şəxsi səadət və məhəbbətdənsə, vətən, el-ulus sevgisi daha çox cəlb edir. Onun könlü ictimai dərdlər əlindən

açılmır. Lakin o, nə qədər zülm-sitəm görsə də, ümidini itirmir, həyat eşqini qoruyub saxlayır. Ancaq aşiqi daha çox narahat edən bunlar deyildir. Ona əzab-əziyyət verən odur ki, bu zəmanədə aşiqi başa düşən, qəm hərfini duyan, doğru sanan yoxdur. Mənəvi təklik onun faciəsinə çevrilir.

Vidadinin "qürbət şeirləri"nin hamısında doğma torpağa, vətənə, el-obaya sonsuz bir məhəbbət vardır.

Şairə görə qürbət vətənsizlik, qohum-qardaşsız və ürək sirdaşı olmadan yaşamaq deməkdir, kimsəsizlik, bikəslik də ən böyük dərddir, insanın mənəvi ölümüdür. İnsanı yaşadan, ona qol-qanad verən doğma el-obadır, ana yurdun isti qoynu və vəfalı sevgilisidir.

Vidadi yaradıcılığında qəzəl və müxəmməslərə də yer vermişdir. Lakin klassik formada yazılan şeirlər dilüslub və mənaca əvvəlki şeirlərdən seçilir. Daha doğrusu, qoşma və gəraylılardan fərqli olaraq qəzəl və müxəmməslərin dili çox da sadə və aydın deyildir, burada ərəbfars sözləri çoxdur. Həm də onlarda ənənəvi-bədii qəzəl üsulu və mövzuları özünü göstərir. Vidadinin qəzəl və müxəmməslərində Xətai, Füzuli və Saibin təsiri vardır.

Şair orijinal qəzəllər, müxəmməslər meydana gətirsə də, o, ən çox qoşma və gəraylı formasında öz bədii qüdrətini göstərə bilmişdir.

XVIII əsrdə real tarixi hadisələr əsasında yazılan əsərlər içərisində Vidadinin "Müsibətnamə" poeması da özünəməxsus bir yer tutur. Bu epik-tarix mənzuməni şair 1780-ci ildə yazıb bitirmişdir.

Vidadi "Müsibətnamə"ni Şəki xanı Hüseyn xan Müştaqın öldürülməsi münasibətilə yazmışdır. Ancaq burda təsvir edilən faciə bir nəfərin deyil, bütün dövrün faciəsi idi. Şair yaşadığı əsrdə ləyaqətli, uzaqgörən, ağıllı dövlət xadimlərinin fəlakətlərinin səbəbini "gərdişi-dövran"da görür. "Müsibətnamə"də zəmanənin bədii-epik mənzərəsi çox yığcam və real cizgilərlə verilmişdir.

Vidadi də dahi sələfi Nizami kimi hakimlərin tərbiyə olunmasına, dəyişməsinə inanırdı. Onları qiyamət günü ilə qorxudur, məzlumların ah-naləsini eşitməyə çağırır, həm dini, həm də dünyəvi vasitələrdən istifadə etməklə öz dövrünün xanlarına təsir etmək istəyir, ölkəyə, xalqa sədaqətlə xidmət edən hakimlər arzulayırdı. Vidadi dərk edirdi ki, bu zəmanədə heç kəs öz muradına çatmır, dövran gündə bir oyun qurur, fələk mərd ilə namərdə fərq qoymur:

"Müsibətnamə" əsəri XVIII əsrin qabaqcıl, işıqlı insanlarının ruhunu, iradəsini, arzu və diləklərini əks etdirir, xalqın ürəyindən xəbər verirdi. Bu tarixi-epik dastan əsrin ictimai ədalətsizliklərinə qarşı yazılmış bir ittihamnamədir.

Vidadi poemada dəbdə olan məsnəvi əvəzinə müxəmməs formasından istifadə etsə də, şairi qafiyə tapmaqda, epik təhkiyəni davam etdirməkdə məhdudlaşdıra bilməmişdir. O, yeri gəldikcə qəhrəman və hadisələrə öz münasibətini bildirir, dostluğu, fədakarlığı, mərdliyi, cəsurluğu, insanpərvərliyi təbliğ edir.

Şairin lirik şeirlərində olan vətəndaşlıq kədəri, ictimai motivlər "Müsibətnamə"də də vardır. Şair mücərrəd qəm, kədər duyğuları əvəzinə, zəmanəsində baş verən tarixi hadisələrin epik lövhələrini yaradır, insan taleyi və xoşbəxtliyini bədii düşüncə obyekti kimi götürür.

Vidadinin "Belə qalmaz" rədifli müsəddəsi onun yaradıcılığının son dövrü üçün çox səciyyəvi bir əsərdir.

Vidadi irsinin tədqiq, nəşr tarixi çox da qədim deyildir.

XIX əsrdə "Vaqif və sair müasirin", "Azərbaycanda və Qafqazda məşhur şüəranın əşarına məcmuədir", "Riyazülaşiqin", "Təzkireyi-Nəvvab", "Gülzar" və "Azərbaycan ədəbiyyatı tarixi materialları" kitablarında Vidadinin əsərlərindən nümunələr verilmişdir.

Vidadinin şeirləri kitab şəklində ilk dəfə 1939-cu ildə nəşr edilmişdir. Həmid Araslı şairin əsərlərini lüğət və şərhlərlə birlikdə 1977-ci ildə təkmilləşdirilmiş şəkildə çap etdirmişdir. Oxuculara təqdim olunan bu kitab həmin nəşr əsasında hazırlanmışdır. Şairin klassik poeziya üslubunun qorunmasını təmin etmək üçün apostrof işarəsinin bu nəşrdə saxlanılması məqsədəuyğun bilinmişdir.

***Əlyar Səfərli***

# QOŞMA, GƏRAYLI və BAYATILAR

**DƏLİ KÖNÜL,
GƏL ƏYLƏNMƏ QÜRBƏTDƏ**

Dəli könül, gəl əylənmə qürbətdə,
Bir gün olur vətən deyib ağlarsan.
Yadlar ilə ömür çürür həsrətdə,
Bir gün olur vətən deyib ağlarsan.

Yaxşı gündə yarü yoldaş çox olur,
Yaman gündə heç bulunmaz, yox olur.
Yad ellərin tənə sözü ox olur,
Bir gün olur vətən deyib ağlarsan.

Mən görmüşəm bu qürbətin dadını,
Yanıb-yanıb çox çəkmişəm odunu.
Qəmlənirsən hər görəndə şadını,
Bir gün olur vətən deyib ağlarsan.

Oxuduqca qəmgin şe'ri-qəzəli,
Köhnə yaraların bir-bir təzəli,
Yada düşər keçən günün əzəli,
Bir gün olur vətən deyib ağlarsan.

Yada düşər bağçaların, bağların,
Ala qarlı, boz dumanlı dağların,
Qocalırsan keçər cavan çağların,
Bir gün olur vətən deyib ağlarsan.

Keçən günü bir-bir xəyal eylərsən,
Dolar qəm könlünə məlal eylərsən.
Gələndən-gedəndən sual eylərsən
Bir gün olur vətən deyib ağlarsan.

Hər məzara düşər olsa güzarın,
Yada düşər ata-ana məzarın.
Vidadi xəstə tək artar azarın,
Bir gün olur vətən deyib ağlarsan.

## QATAR-QATAR OLUB QALXIB HAVAYA

Qatar-qatar olub qalxıb havaya,
Nə çıxıbsız asimana, durnalar!
Qərib-qərib, qəmgin-qəmgin ötərsiz,
Üz tutubsuz nə məkana, durnalar?

Təsbih kimi qatarınız düzərsiz,
Havalanıb ərş üzündə süzərsiz,
Gah olur ki, danə-xuriş gəzərsiz,
Gah düşərsiz pərişana, durnalar!

Ərz eyləyim, bu, sözümün sağıdır,
Yollarınız haramıdır, yağıdır,
Şahin-şonqar sürbənizi dağıdır,
Boyanarsız qızıl qana, durnalar!

Əzəl başdan Bəsrə, Bağdad eliniz,
Bəylər üçün ərməğandır teliniz.
Oxuduqca şirin-şirin diliniz
Bağrım olur şana-şana, durnalar.

Bir baş çəkin dərdməndin halına,
Ərzə yazsın, qələm alsın əlinə.
Vidadi xəstədən Bağdad elinə
Siz yetirin bir nişana, durnalar!

**EY HƏMDƏMİM,
GƏL Kİ, GEDƏR CAN DURMAZ**

Ey həmdəmim, gəl ki, gedər can durmaz
Sənsiz tutmaz söyləməyə dillər hey.
Kəsilibdir, yoxdur səbrü qərarım,
Bir saətim olub uzun illər hey.

Heç bilmədim dövran necə dolandı,
Yandı cismim atəşlərə qalandı.
Könül şəhri gündən-günə talandı,
İndi oldu bir xərabə çöllər hey.

Həsrətindən əlif qəddim büküldü,
Cismim bəndi yerbəyerdən söküldü,
Gözüm yaşı yol-yol oldu töküldü,
Üzüm üstdən axdı qanlı sellər hey.

Nə şirindir, məhəbbət tək zad olmaz,
Ölənətən könül ondan yad olmaz,
Müddətdir ki, məlul könlüm şad olmaz
Məgər əsməz dost kuyindən yellər hey?

Vidadi xəstəyəm günlər sanaram,
Dərd əhliyəm qəm hərfini qanaram,
Qəriblikdə yada düşər yanaram:
Aşna, yoldaş, yar, müsahib, ellər hey.

## AYLAR, İLLƏR HƏSRƏTİNİ ÇƏKƏRDİM

Aylar, illər həsrətini çəkərdim,
Şükür yetdim vüsalına, sevdiyim!
Müştaqinəm, canı qurban eylərəm,
O xəttinə, o xalına, sevdiyim!

Eşqin elə bu könlümə fənd elər,
Danışdıqca göftarını qənd elər,
Zülfün ilə hüsnün birdən bənd elər,
Xəyalımı xəyalına, sevdiyim!

Səndə vardır belə şanü şövkətlər,
Həsrətini çəkər mahi-təl’ətlər,
Sən bir xoş behiştsən, qəmzən zinətlər,
Nə fərq elər əhvalına, sevdiyim!

Eşqin məni gündən-günə qeyr elər,
Səni sevən əlbəttə ki, xeyr elər.
Bax çıxarmış şükufələr seyr elər
O yaşıla, o alına, sevdiyim!

Səni mənə bəxş elədi zamana,
Yaxşı olan nəsib olmaz yamana.
Vidadiyəm sinəm gəldi nişana,
Bir ox atdım iqbalına, sevdiyim!

## EY HƏMDƏMİM, SƏNİ QANƏ QƏRQ EYLƏR

Ey həmdəmim, səni qanə qərq eylər,
Gəl tərpətmə yaralanmış könlümü.
Ayrı düşmüş vətənindən, elindən,
Həmdərdindən aralanmış könlümü.

Könül verdik hər bivəfa yadlara,
Hayıf oldu ömür getdi badlara,
Fələk saldı dürlü-dürlü odlara,
Şan-şan olmuş, paralanmış könlümü.

Qanlı yaşım gündən-günə bollandı,
Axdı-axdı sinəm üstə gölləndi,
Yenə qəm səməndin mindi yollandı,
Heç bilmədim bərələnmiş könlümü.

Gözüm yaşı gündən-günə fərq etsə,
Eyb etməyin məni qanə qərq etsə,
Rövşən etməz yüz min günəş bərq etsə,
Bu möhnətdə qaralanmış könlümü.

Vidadi xəstəyəm çeşmi mərdümü,
Tərk elədim vətənimi, yurdumu,
Çox təbibə şərh elədim dərdimi,
Heç görmədim çaralanmış könlümü.

**KÖNÜL HƏSRƏT,**
**CAN MÜNTƏZİR, GÖZ YOLDA**

Könül həsrət, can müntəzir, göz yolda,
Ömr azaldı,və’də keçdi san ilə.
Bir də könlüm istədiyin, gözlərim,
Görərəmmi ol şövkətlə, şan ilə.

İstəmənəm bu dünyanın malını,
Qovğasını, fitnəsini, alını,
Qəriblikdə bikəslərin halını
Fikr elərəm, gözüm dolar qan ilə.

Mərdlər ilən gəz ki, vəfadar olur,
Nakəslərə yoldaş olan xar olur.
Namərd odur yaxşı gündə yar olur,
Yaman gündə baxmaz, ötər yan ilə.

Mərd olanlar keçər külli varından,
Əl götürməz namusundan, arından,
Ölənətən dönə bilməz yarından,
Meydan günü başın qoyar can ilə.

Daim haqdır Vidadinin deməyi,
Doğruların hərgiz itməz əməyi,
Hər kimin ki, mövla olur köməyi
Nə işi var sultan ilə, xan ilə.

**EY MƏNİ QINAYAN, AĞLAMA, DEYİB**

Ey məni qınayan, ağlama,deyib,
Ağlar yarı gedən bəs ağlamazmı?
İllər ilən həmdəmindən ayrılıb,
Xoş nigarı gedən bəs ağlamazmı?

Olmaya yanında yarı, cananı,
Puça çıxıb gedə ömri-cavanı,
Günbəgün əksilib şövkəti, şanı
İxtiyarı gedən bəs ağlamazmı?

Bəxt çönüb, çünki zəmanə dönüb,
Şadü xürrəm işi fəğanə dönüb,
Ömrünün gülzarı xəzanə dönüb,
Novbaharı gedən bəs ağlamazmı?

Ərz elərəm sən xasların xasına,
Səbr eləyim mən bu dərdin hasına,
Göz yollarda, can gedincə ta sinə
İntizarı gedən bəs ağlamazmı?

Vidadi xəstəni gəl indi tanı,
Hanı o sən görən şəklü nişanı,
Rəngü ruyi, cismi, taqəti, canı,
Külli-varı gedən bəs ağlamazmı?

## SEYRİ-GÜLŞƏN ETSƏN, EY GÜLÜZARIM

Seyri-gülşən etsən, ey gül'üzarım,
Bülbül oxur, bağlar sədayə düşər.
Xəttinə baş əyər sünbül, bənövşə
Gül xaki-payinə fədayə düşər.

Xurşidim, xavərim, hilalım sənsən,
Şəkərim, şərbətim, zülalım sənsən.
Fikrim, zikrim, sözüm, xəyalım sənsən,
Haçan könlüm səndən cüdayə düşər.

Arizunu çəkir sahib-diləklər,
Dolanıb başına dönər fələklər.
Mədhin oxur ərş üzündə mələklər,
Hər biri bir türfə vidaya düşər.

Xəyalındır xəyalımın həyatı,
Dəhanın şəkəri, dilin nəbatı,
Cəmalın sədqəsi, hüsnün zəkatı
Mənim tək bivanə gədayə düşər.

İntizarın mən çəkərəm peyvəstə,
Könül pərişandır, xatir şikəstə,
Istər vüsalını Vidadi xəstə,
Üz xakə fərş eylər, duayə düşər.

## AY AĞALAR, BİR NİGARIN ODUNA

Ay ağalar, bir nigarın oduna
Dəli könül yana-yana düşübdür.
Mən ki, düşüb bu hal ilə yanaram,
Nə səməndər, nə pərvanə düşübdür.

Açılıb cənnət tək camalın gülü,
Ötər çevrəsində şeyda bülbülü.
Bu gülşənin yasəməni, sünbülü
Nə bir bağa, nə bostana düşübdür.

Lə’li-ləbi bənzər gövhər kanına,
Düzülüb gövhər tək dür dəhanına,
Siyəh tellər ağ buxağın yanına,
Xırda xallar zənəxdanə düşübdür.

Könül dost kuyinə etdikcə güzər,
Qanlı qəmzəsindən etməzmi həzər?
Çıxdı gözüm birdən eylədi nəzər,
Gör necə kəsilməz qanə düşübdür.

Qaşı, gözü durub qanın almağa,
Zülf tökülmüş din, imanın almağa,
Vidadi xəstənin canın almağa
Xət bir yana, xal bir yanə düşübdür.

## ÇƏRXİ-FƏLƏK ZÜLMÜ ZİYAD EYLƏMİŞ

Çərxi-fələk zülmü ziyad eyləmiş,
Hicran məni gündə döyər, ağlaram.
Ey yaranlar, sındırıbdır belimi
Möhnət yükü qəddim əyər, ağlaram.

Məni belə hər kim görə, bir ağlar,
Dağ-daş yanar, ulus, oymaq, el ağlar.
Cismim sızlar, göz yaş tökər, dil ağlar,
Öz başıma yalqız məgər ağlaram?

Ey mənim tək göz yaşını saçanlar,
Qürbətlikdə cigər qanın içənlər,
Fikr etdikcə cümlə bir-bir keçənlər
Yadə düşər, yanar cigər, ağlaram.

Hayıf oldu o dövranlar, o dəmlər,
Gəldi, keçdi yar, müsahib, həmdəmlər,
Bərhəm olur dərdlər, qəmlər ələmlər,
Bir-birinə gündə dəgər, ağlaram.

Çərxi-fələk, mən ha köçdüm yurdumdan,
Ayrı düşdüm qoşunumdan, ordumdan,
Vidadiyəm, aləm tanır dərdimdən,
Əgər ağlamanam, əgər ağlaram.

**YENƏ YAD EYLƏDİM KEÇƏN GÜNLƏRİ**

Yenə yad eylədim keçən günləri,
Axdı gözlərimdən qan gedər oldu,
Bihuş oldum, nitqim, səbrim, qərarım
Çıxdı bu cismimdən san gedər oldu.

Dil necə ağlayıb çəkməsin zarı,
Hər gün artar bir dərmansız azarı.
Elə kasad oldu könül bazarı
Sanasan şəhrindən xan gedər oldu.

Ey könül pozuldu rəngi-alların,
Tər sima, xoş bədən, xəttü xalların,
Şirin göftarların, dür xəyalların,
Atəşi-hicranə yan gedər oldu.

Hanı ol əzəlki nazü rif'ətlər,
O qəddü qamətlər, hüsni-surətlər,
Gedərmiş mərdümən qədrü hörmətlər
Elə ki, şövkətü şan gedər oldu.

Ey Vidadi xəstə, noldu bazular,
Düşdü qələm, itdi gözdən yazılar.
Hümmət edin, yar, müsahib, qazılar
Yüz min həsrət ilə can gedər oldu.

**EY FƏLƏK,
ƏLİNDƏN DAD ETMƏYİMMİ**

Ey fələk, əlindən dad etməyimmi,
Sən məni dərdə bac eyləmədinmi?
İtirdin gözümdən yari-həmdəmi,
Taydan-tuşdan ixrac eyləmədinmi?

Qəvvas olub eşq bəhrin üzərkən,
Sevda səməndini minib gəzərkən,
Özgələrin əyrisini düzərkən,
Öz işimdə qiyqaç eyləmədinmi?

Mən necə səbr edim ha belə dərdə,
Canü cismim oldu sağ ikən mürdə,
İşim saldın hər nakəsə, namərdə
Onlara məni möhtac eyləmədinmi?

Gündən-günə dərdim oldu ziyada,
Axırda ömürüm getdi bərbada,
Keçən günlər bir-bir düşdükcə yada
Əşkimi pürəmvac eyləmədinmi?

Gör necə düşübdür Vidadi xəstə,
Nitqi lal olubdur, zəbanı bəstə,
Qəm ləşkəri durub dəstəbədəstə
Könül şəhrin tarac eyləmədinmi?

**GECƏ-GÜNDÜZ ODA DÜŞÜB YANARAM**

Gecə-gündüz oda düşüb yanaram,
Siyah telli bir sonanın ucundan.
Nə dil deyə bilir,nə qələm yazır
Hər nə ki çəkmişəm onun ucundan.

Qəm ki gəlir mənə firqəbəfirqə,
Nə Məcnun çəkibdir, nə görüb Vərqə,
Neçə mərdümləri vermişəm qərqə
Çeşmimdən tökülən qanın ucundan.

Nə xoş olur eşq əhlinin bu halı,
Şəmə yana pərvənənin misalı,
Gəldikcə xəyala yarın xəyalı
Yanar odlar düşər canın ucundan.

Könül düşüb hər havadan enərmiş,
Şişə təki hər nə dəgsə sınarmış,
Səməndər tək özbaşına yanamış
Hicran günü can cananın ucundan.

Bivəfa dünyada, dəhri-fənada,
Fələk məni yetirmədi murada.
Vidadi xəstəyəm, ömrümü bada
Verdim axır bu sevdanın ucundan.

## YENƏ BİR LEYLİVƏŞ YARƏ DİL VERDİK

Yenə bir leylivəş yara dil verdik,
Könül Məcnun təki divanələnmiş,
Atəşi-eşqindən dil kəbab olmuş,
Dolanır, çövrünür pərvanələnmiş.

Apardı ağlımı bir ahü gözlü,
Bir bənövşə buylu, bir lalə üzlü,
Bir şirin göftarlı, bir şəkər sözlü,
Ağzı sədəf, dişi dürdanələnmiş.

Düşübdür xəyalım yarın ruyinə,
Can quşu bənd olub zülfü muyinə,
Salıbdır meylini yarın kuyinə,
Əqlü huşum məndən biganələnmiş.

Ta ki, xəbər gəldi xublar şuxundan,
Əl çəkdim cahanın varü yoxundan.
Qəmzə xəncərindən, müjgan oxundan
Cigər parə-parə, dil şanələnmiş.

Vidadi xəstəyəm, ey gözüm sağı,
Artıbdır sinəmin düyünü, dağı,
Bir qəmzəsi qanlı, hərami, yağı
Çapdı könlüm şəhrin, viranələnmiş.

## XƏSTƏ DÜŞDÜM, GƏLƏN YOXDUR ÜSTÜMƏ

Xəstə düşdüm, gələn yoxdur üstümə,
Qərib öldüm, bikəs öldüm, yad öldüm,
Xəbər olsun yaranıma, dostuma,
Qərib öldüm, bikəs öldüm, yad öldüm.
Ey sevdiyim, səndən qeyri kimim var,
Gəl üstümə, aman öldüm, dad öldüm.

Xırdacalar yığıldılar yanıma,
Fikr elədim odlar düşdü canıma,
Başdan belə yazılıbdır şanıma,
Qərib öldüm, bikəs öldüm, yad öldüm.
Ey sevdiyim, səndən qeyri kimim var,
Gəl üstümə, aman öldüm, dad öldüm.

Dərdim çoxdur, birin doğru sanan yox,
Məgər bunda qəm hərfini qanan yox?
Bir ah çəkib cigərindən yanan yox,
Qərib öldüm, bikəs öldüm, yad öldüm.
Ey sevdiyim, səndən qeyri kimim var,
Gəl üstümə, aman öldüm, dad öldüm.

Ağla, didəm, qanlı yaşın sel olsun,
Söyləməyə gizli dərdin dil olsun.
Kimim vardır qohum-qardaş, el olsun,

Qərib öldüm, bikəs öldüm, yad öldüm.
Ey sevdiyim, səndən qeyri kimim var,
Gəl üstümə, aman öldüm, dad öldüm.

Vidadiyəm, təbib dərdim bağlamaz,
Sinəm başın düyünləməz, dağlamaz,
Yad yığılar, sərin baxar, ağlamaz,
Qərib öldüm, bikəs öldüm, yad öldüm,
Ey sevdiyim, səndən qeyri kimim var,
Gəl üstümə, aman öldüm, dad öldüm.

**EY DƏHANİ ŞƏKƏR,**
**LƏBLƏRİ BADƏ!**
(*Təcnis)*

Ey dəhanı şəkər, ləbləri badə,
Gün camalın eşq əhlinə ayinə.
Üzün gördü şeyda könül məst oldu,
Nə hacət ki, həşr olunca ayinə.

Səni məndən, məni səndən sanaram,
Tanrı üçün uzaq tutma sən aram.
Vüsalından ayrılalı sanaram,
Yetə bilməm həftəsinə, ayına.

Sənsiz mənə dolandıqca sal, sənə,
Əşkim dərya, cismim oldu sal sənə.
Nolur niqabını üzdən salsənə
Günəş göydə səcdə qıla, ay enə.

Neçin kəsdin sinəm üstən ayaqlar,
Üzün göstər, sərməst olsun ayıqlar.
Həsrət çeşmim, qan-yaş tökər, ay ağlar,
Gördüm ola bir də üzün, ayə, nə?

Vidadiyi-xəstə oxu miyandır.
Qur sən tər sadağın oxumu yandır,
Kim hüsnün kitabın oxumayandır ,
Nə bilir ki, hədis nədir, ayə nə?

## SƏBA, ƏHVALIMI BİR-BİR

Səba əhvalımı bir-bir
Varıb ol yarə ərz eylə.
Qəmü dərdi-dilim şərhin
Deyib, dildarə ərz eylə!

Gedərsən kuyinə yarın,
O qəddi-sərvrəftarın,
Fəğanın bülbüli-zarın
Güli-gülzarə ərz eylə!

Desən mən zarü giryandan,
Vücudi, bağrı büryandan,
Dəmadəm tiği-hicrandan
Ciyər sədparə, ərz eylə!

Səba, gəl seyri-gülzar et,
Gülü reyhanı bidar et,
Təbibə dərdim izhar et,
Qəmi qəmxarə ərz eylə!

Vidadi xəstə bimarın,
Bəlayi-eşqdən zarın,
Sözün müştaqi-didarın
Yetir cananə, ərz eylə!

## KÖNÜL SƏBRÜ QƏRAR ETMƏZ

Könül səbrü qərar etməz
Gedər yar olmayan yerdə,
Məhəbbət payidar olmaz
Vəfadar olmayan yerdə.

Vəfa qıl bir vəfadarə,
Ulaşma hər biiqrarə,
Mətain atma bazarə
Xiridar olmayan yerdə.

Mənim həmrazü həmdərdim
Deyim hər bədnümə gördüm.
Hünər kəsb eyləməz mərdüm
Namus, ar olmayan yerdə.

Xuda, sən saxla gəl fərdi,
Çətindir yalqızın dərdi,
Pərişanlıq tapar mərdi
Havadar olmayan yerdə.

Dila, laf etmə mütləqdən,
Düşərsən zülmə nahəqdən,
Neçin mərdüm dönər həqdən
Bir azar olmayan yerdə?

Gəl ey könlü olan rövşən,
Qəbul et bu sözü məndən,
Necə məğdur olur məskən
Gülə xar olmayan yerdə.

Könül dünyada yar istər,
Olubdur biqərar istər ,
Vidadi xəstə var istər,
Haçan yar olmayan yerdə?

## VAQİF, NƏ TEZ SƏNƏMLƏRDƏN ƏL ÇƏKDİN!

Vaqif, nə tez sənəmlərdən əl çəkdin,
Birin bir inəyə qiymət eylərsən?
Hələ sonra keçiyə də enərsən,
Alsa müştəriyə minnət eylərsən.

Puç olsun qocalıq, gördün ki, necə,
Bir pulca xublara gəlməzmiş vecə,
Gündüz fikr etdiyin baş tutmaz gecə,
Tamam puçdur hər nə söhbət eylərsən.

Xublar işində ki, qiyqac olursan,
Onların tə’ninə amac olursan,
Sən ki, alığa da möhtac olursan,
Əbəs yerə neçin zəhmət eylərsən.

İşin ki, düşübdür Arayatıya,
Oğul da olsa, dəxi baxmaz atıya,
Birin də mən allam örkən-çatıya,
Əgər qayırmağa möhlət eylərsən.

Sifariş etmişdin qəl’əbəyiyə
Ki, sən göz-qulaq ol bizim dəyiyə,
Müştərini doldurubdur payiyə
Necə ki, keyfindir ləzzət eylərsən.

Demədimmi alma ağ dəyənəyi,
Danadan, buzovdan etmə hənəyi,
İndi nə çox istəyibsən inəyi,
Hələ sonra daha şiddət eylərsən.

Dovtələb olub gedibsən xandan,
Ölüncə çıxmanam ta Gülüstandan.
İnşallah çalışsan habelə candan
Hər nə desən, bil, aqibət eylərsən.

Bir igidsən, işlərində daim ol,
Demənəm ki, qəflət eylə, naim ol,
Xan buyuran qulluqlarda qaim ol,
Gör düşmənə nə həqarət eylərsən.

Əgər Allah xana verə nüsrətlər,
Zaye olmaz heç çəkdiyin zəhmətlər,
Başa gəlir eylədiyin niyyətlər,
Gər sidq ilə nəngü qeyrət eylərsən.

Quşçu Namazəli yeyib-yatmasın,
Daim sözün məsləhətə qatmasın,
Çox da özün hər meydana atmasın,
Qəfil o igidi xiffət eylərsən.

Bizim Abdullahın vardır qədəmi,
Onun da ha indi gəlibdir dəmi,

Genə qoymaz o Gəncədə adəmi,
Əgər ki, sən bir işarət eylərsən.

Baqqal ilən Əli müştağındadır,
Molla Səfərəli fərağındadır.
Xeyri olsun hər kəs yığnağındadır,
Onlar ilən zövqü işrət eylərsən.

Hərgiz olmaz haq gölünün fənası,
Əskik olmaz yaşıl başlı sonası,
Məhşərətən qaim olsun binası
O məscid ki, doğru imrət eylərsən.

Biz də təşrif buyurmuşduq bağatan,
Eşitdik gəldiyin Nəsib ağadan,
Mən ha bilməz idim ta bu çağatan,
İndi bildim hünər, cür'ət eylərsən.

## BAYATILAR*

Şam yanar a yağ ilə,
Gəl, gözüm, əyağilə,
Gəldi Vəli başına,
Gəlməyən ay ağıla.

Vəliyəm qanad ilə,
Üz tutdum qan adilə,
Xəyalım gedən yerə.
Quş getməz qanadilə.

Vəliyəm, ay Qazağlar,
Dərd sızlar, ay göz ağlar,
Tülək tərlan yurduna
Qonmasın ay qaz, ağlar.

Vəliyəm, sənə dilə,
Üz dutdum sən adilə,
Dövran mənə zülm etdi,
Gəlmişəm sana dilə.

---

* Qazaxda yazılmış bir cüngdən götürülmüşdür.

# QƏZƏL
# və
# MÜXƏMMƏSLƏR

## HƏR SƏHƏR BAD ƏSƏR, ARIZI-CANANƏ DƏYƏR

Hər səhər bad əsər, arizi-cananə dəyər,
Toxunur sərvə gəhi, gah gülüstanə dəyər.

Olmasa qabil əgər dəhr cəfa verməz ona,
Tə'm biləzzət olanda necə dəndanə dəyər.

Şəm gər yansa savadi-şəb üçün heyf olmaz,
Şö'ləsi çünki onun arizi-cananə dəyər.

Söhbəti-nakəsü namərd həmin söhbət imiş,
Tut ki, bir mərd ətəyin dövləti-xaqanə dəyər.

Sən ki, bir mərdin ucundan nə bəla çəkdin isə,
Vəsli-didari onun rəhməti-qüfranə dəyər.

Mən ki, meydani-bəla içrə sərim top edərəm,
Ta düşər əldən-ələ axırı çövkanə dəyər.

O nə qəmdir oda bir mərdin ucunda yanasan,
Verəsən canını bir canə ki, min canə dəyər.

Canımı atəşi-qürbətdə belə yandırıram,
Necə şəm'ə dolanıb hər gecə pərvanə dəyər.

Nə qədər olsa qoca gərçi Vidadi xəstə
Yenə Vaqif kimi, əlbəttə, yüz oğlanə dəyər.

## BİLİRSİZ, VAQİFA, KİM ŞÖVQİMİZ DİDARƏ ÇOXDANDIR

Bilirsiz, Vaqifa, kim şövqimiz didarə çoxdandır,
Nə çarə, eyləməz dövran vüsalə çarə çoxdandır.

Pərişandır könül, zülfü pərişanlar həvasında
Bu sevdadə olubdur mürği-dil avarə çoxdandır.

Təbiba, ta ki, düşdük çün həzər rəncuri-eşq olduq,
Mühəssəl yetmədi bimarimiz timarə çoxdandır.

Qərəz canana mətləb can isə inkarımız yoxdur,
Verib can-baş yolunda, durmuşuq iqrarə çoxdandır.

Vidadi xəstə kim, düşmüş səadətlər sücudindən,
Bəli Sən'ani-dil ta bağlanıb zünnarə çoxdandır.

## SƏN TƏK, EY GÜL, DEMƏ GÜL GÜLZARƏ GƏLMİŞ, GƏLMƏMİŞ

Sən tək, ey gül, demə gül gülzarə gəlmiş, gəlməmiş,
Şəhr ara hüsnüncə namə barə gəlmiş, gəlməmiş.

Dəmbədəm, ey gül bədən, şirin dəhən, şəhdü şəkər,
Lə'li-ləbin ləhcəyi-göftarə gəlmiş, gəlməmiş.

Eylədim təhqiq kim qövsi-qaşın tək növnəhal
Hüsn bağində qədin rəftarə gəlmiş, gəlməmiş.

Demə kim üşşaq qanın tökməyə qəmzən kimi
Qatilü cəllad tək xunxarə gəlmiş, gəlməmiş.

Çün dəva yox eşq dərdinə nə fərq eylər təbib,
Bu Vidadi xəstəyi-biçarə gəlmiş, gəlməmiş.

**NECƏ GÖZ SƏN TƏK GÖZƏL DÜNYADA GÖRMÜŞ, GÖRMƏMİŞ!**

Necə göz sən tək gözəl dünyada görmüş, görməmiş,
Böylə məqbulü müzəlləf sadə görmüş, görməmiş.

Bavər etmən, ey mələklər sərvəri kim, bir bəşər
Səncə bu xubluqdəvü simadə görmüş, görməmiş.

Sanma qılmış teyi-gülzari-çəmən bülbül-həzər
Qamətin tək sərvi-xoş azadə görmüş, görməmiş.

Ey gözüm saqi, xəyal etmə bu bəzmin rindəsi
Şərbəti-lə’li ləbin tək badə görmüş, görməmiş.

Kimsə yox aləmdə mütləq bu Vidadi xəstə tək
Bir əsiri-dərdi-eşq iftadə görmüş, görməmiş.

## SANMA, EY DUST, SƏN TƏK AFƏT CANƏ OLMUŞ, OLMAMIŞ!

Sanma, ey dust, sən tək afət canə olmuş, olmamış,
Gözlərin tək nərgisi-məstanə olmuş, olmamış.

Demə kim görmüş cahan şəm'i-cəmalın tək çıraq,
Ya ona canım kimi pərvanə olmuş, olmamış.

Sürmə mən Məcnunu qapından, ey Leyliyi-dəhr,
Dərgahında nola bir divanə olmuş, olmamış?

Olmadı bir gün, Vidadi xəstə, giryan olmadın,
Kimsə onu görmədi xəndanə olmuş, olmamış.

## NİGARA, ZÖVQİ-HÜSNÜNDƏN Kİ, HƏRDƏM İTTİFAQ ARTAR

Nigara, zövqi-hüsnündən ki, hərdəm ittifaq artar,
Fəraqindən gəlir min qəm, qəmindən min fəraq artar.

Nə qəfilsən ki, mütləq ahi-dilsuzim əsər qılmaz,
Sədayi-naləmə aləmdə munca göz-qulaq artar.

Məni gər məst edibsən, saqiya, xoş halim ondandır,
Dolandırdıqca cami-eşq dövründə əyaq artar.

Qərəz cövrin ziyadi-tərki-eşq isə füzun eylə,
Cərahət qalib olduqca təbibə iştiyaq artar.

Vidadi xəstəyəm məşhur halim dövri-hüsnündə
Vəli yüz şükür ki, can əksilir eşqi-məzaq artar.

**EY SƏBA, GƏL BİR XƏBƏR VER CANƏ, CANAN XANDADIR**?

Ey səba, gəl bir xəbər ver canə, canan xandadır?
Şəhri-könlüm oldu viran, ona sultan xandadır?

Bir pəripeykər, mələkru, cismi nazik, simvəş,
Qaməti sərvü sənubər, hüsni-taban xandadır?

Ağzı püstə, dişləri dür, dili şəkkər, ləbi bal,
Xali hindu, çeşmi cadu, tiri-müjgan xandadır?

Qaşları hilalə bənzər, türrəsi ənbərfəşan,
Zülfü sünbül, buyi gül, gül xətti reyhan xandadır?

Ey fələk, aləmdə düşmüş böylə canandan cüda,
Gör Vidadi xəstə tək sən bir didərgin xandadır?

## MƏNƏ BİR ŞUXÜ ŞİRİN DİLRÜBA BİR PİRƏHƏN TİKMİŞ

Mənə bir şuxü şirin dilrüba bir pirəhən tikmiş,
Sanasan nəqşi-qüdrətdir əcəb türfə həsən tikmiş.

Tamaşa eylədim üstündə heç əl gəzməmiş guya
Çəkib bir surə öz cismi kimi nazik tikən tikmiş.

Bilir hər kəs, çıxar xoş nazik işlər nazəninlərdən,
Bəli, bir lalə üzlü, sərviqəd, nəsrinbədən tikmiş.

Uzaqdır, ey həbibim, böylə iş naəhl olanlardan,
Yenə bir dərmənd, eşq əhlinin qədrin bilən tikmiş.

Nə xoş olmuş Vidadi xəstənin əhvalına vaqif
Ki, sə’y etmiş bilib onu, bir əhvalə yetən tikmiş.

## GƏRÇİ YÜZ MİN ALƏM İÇRƏ VAR YARINDAN CÜDA

Gərçi yüz min aləm içrə var yarından cüda,
Heç kəs mən tək deyil pərvərdigarından cüda.

Dərdü möhnətlər xərab etmiş xəyalım xanəsin,
Olmadı ayineyi-dil qəm-qübarından cüda.

Eyləmiş rövşən qəmər hicrə fəraq iftadəsin
Cümlə yarından cüda, həm külli-varından cüda.

Sorsa yar əhvali-dil gör bir necə söylər səba,
Canü tən bitab, dil səbrü qərarından cüda.

Bir bəlakeş görmədim düşmüş Vidadi xəstə tək,
Aşinavü həmdəmü həm dostü yarından cüda.

**DEYİBSİZ YƏNİ GƏLLƏM GƏLDİ
BİR BELƏ XƏBƏR, VAQİF!**

Deyibsiz yə’ni gəlləm gəldi bir belə xəbər, Vaqif,
Xilaf idi bu sözlər bəs, peşimanmı məgər Vaqif?

Bilirdim mən fələk verməz visalə çox da üz, amma
Bizi saldı əzabi-intizarə müxtəsər Vaqif.

Bu gün danla demə, dövran deyildir bir qərar üzrə,
Sən ondan ta olunca vaqif, ol səndən keçər, Vaqif!

Məcalın var ikən ol yarü həmdərdi güzar eylə,
Könül qəmdən açar, yaxşı olur seyrü səfər Vaqif.

Bilirsiz qövli-sünnət, bə’di niyyət məhz vacibdir,
Hələ rəhm olduğu mə’lumunuzdur, mötəbər Vaqif.

Vətən yad eyləməzsiz gər tutalım könlünüz quşdur,
Məgər qəti rəhmdən eyləməzsiz bir xəbər, Vaqif.

Fələk bər’əksi-dövran olduğundan bir nişandır bu
Vidadi xəstə tək düşmüş vətəndən dərbədər Vaqif.

## TUTMA, EY SAHİB-NƏZƏR, MƏNDƏN NƏZƏR, DİVANİYƏM!

Tutma, ey sahib-nəzər, məndən nəzər, divaniyəm,
Bu təhəyyürdən tutulmuş könlümün heyraniyəm.

Gər görürsən əqlü tədbirü fərasətdən cüda,
Bihünər sanma əbəs kim, eşqlə mərdaniyəm.

Canı canandan diriğ etmən, dili dildardən,
Navəki-qəmzə sevən, əbru kəman qurbaniyəm.

Məsti-cami-Cəm olub şürbi degilsən gərçi mən,
Tacü təxti-fərq ilən qəm mülkünün xaqaniyəm.

İzzü cah ilə mənim qeyr ilə yox davam vəli,
Mən Vidadi xəstəyəm, öz şəhrimin sultaniyəm.

## ÖLÜM HƏQDƏNDİR, ƏMMA NÖVCƏVAN ÖLMƏK NƏ MÜŞKÜLDÜR

Ölüm həqdəndir, əmma növcəvan ölmək nə müşküldür,
Gözündə hər muradı, tazə-can ölmək nə müşküldür.

Həvayi-eşq sərdə, xatirində vəsl sevdası,
Dilində əzbəri-yarü cinan ölmək nə müşküldür.

Tamaşayi-camalından nəzərlər olmaya xali,
Nizami-xəttü xalı xoşnişan ölmək nə müşküldür.

Kəlamı, nitqi, ləfzi xoş, dili şirin, üzü xəndan,
Qiyami-qaməti sərvi-rəvan ölmək nə müşküldür.

Çəkə həsrət görənlər, görməyənlər arizusunda,
Ola dillərdə vəfi hər zaman, ölmək nə müşküldür.

Keçib peykan bağrından, düşüb məcruh sərgəştə,
Ola al qanına qəltan ölmək nə müşküldür.

Verə qürbətdə can, yanında yarü həmdəmindən yox,
Qala könlündə hər sirri nihan, ölmək nə müşküldür.

Təkəllümdən düşüb dil, tabü taqət qalmayıb canda,
Gözü yollarda qalıb bizəban ölmək nə müşküldür

Tamam olmaz yüz il şərh eyləsəm bu dərdi-bidərman,
Qəribü bikəsü bixaniman ölmək nə müşküldür.

Neçə növrəs cəvani-sərəfrazından cüda, həsrət,
Vidadi, xəstə düşmək, natəvan ölmək nə müşküldür.

## ƏR LİBASIN GEYƏ HƏR RƏNGLƏ ZƏN, MƏRD OLMAZ

Ər libasın geyə hər rənglə zən, mərd olmaz,
Mərd hərçənd ki, zən öldürə, namərd olmaz.

Gər rəfiqin ola bidərd, dəvasız dərddir,
Əhli-dildən gələ min zəxm, o bir dərd olmaz.

Gəzsə gər əhli-təmə, dəhri, yüz il sail olub,
Vaqifi-hikmət olub, mərdi-cahangərd olmaz.

Demə hər surətə bitəcrübə mərdüm göz ilə,
Bərg hər növ ki, gülşəndə bitər vərd olmaz.

Qəm yemə, xəstə Vidadi, görüb ə'danı kəsir,
Haqqa ixlas ilə meydanə girən fərd olmaz.

## AH-AH, EY ÇƏRXİ-QƏDDAR, AH, EY BƏDRUZİGAR!

Ah-ah, ey çərxi-qəddar, ah, ey bədruzigar,
Künci-zülmətdə əcəb qoydun məni heyranü zar.

Yarı yox, dildarı yox, bir munisi, qəmxarı yox,
Gözdə nəm, xatirdə qəm, heyrətdə hərdəm dilfikar.

Dəstü pa bəstə, bədən xəstə, şikəstə sərnigün,
Çeşmi giryan, cismi büryan, müztərib can biqərar.

Getdi taqət, nazü rif'ət, qədrü hörmət payimal,
Dərdi əfzun, əşk gülgün, bəxt gün-gün tirətar.

Neçə yüz daği-fəraq ilən Vidadi xəstəni
Tarmar etdin sən, ey gərduni-dun, ol tarimar!

## ŞƏHDABİ-LƏBİN SAĞƏRİ-PEYMANƏ TƏK, EY DUST!

Şəhdabi-ləbin sağəri-peymanə tək, ey dust!
Dürci-dəhənin höqqeyi-dürdanə, tək ey dust!

Gülzari-behişt tək açılıb rövzeyi-hüsnün,
Bimar gözün nərgisi-məstanə tək, ey dust!

Ol dəm ki, göründü gözümə şəm’i-cəmalın,
Yandırdı məni şövq odu pərvanə tək, ey dust!

Fikr eylədi ahu gözünü xəstə Vidadi,
Düşdü yenə səhralara divanə tək, ey dust!

## YANAR CİSMİM BU GÜN ATƏŞLƏRƏ CANÜ CİGƏRDƏN ÇOX

Yanar cismim bu gün atəşlərə canü cigərdən çox,
Olubdur dil müşəvvəş, bilməzəm hansı xəbərdən çox.

Açılmaz taleim sübhü, olubdur tirə əyyamım,
Salıbdır bəxtimi bu dideyi-dövran nəzərdən çox.

Görüb əhvalımı tə’n etmə, ey tənpərvəri-dövran,
Həvayi-eşq ilə çox qissələr keçdi bu sərdən çox.

Demə, ey deyil, cahanda yox mənim tək dəhr pamalı,
Nə vardır aləmi-möhnətdə sən tək dərbədərdən çox.

Nəsibin, ey Vidadi xəstə, təqdiri-qəzadəndir,
Təhəmmül eylə, fikr et, görmə nöqsanın bəşərdən çox.

**HƏBİBİM, TA SƏNİ MƏN SEVMİŞƏM ƏŞRAF ARASINDA**

Həbibim, ta səni mən sevmişəm əşraf arasında,
Vücudum, atəşi-eşqin yanıbdır saf arasında.

Üzün görmək təhəyyürdən tutulmuş nitqimə baxma,
Tərəhhüm qıl, özün bir halə yet insaf arasında.

Qiyamın bir əlifdir aşiqin eynü xəyalından,
Sevirlər can içində, aləmü ətraf arasında.

Qaşın bir nundur çəkmiş qəza nəqqaşı qüdrətdən,
Nəzərdə cümlədən baş yazılar əsnaf arasında.

Vəfa yoxdur, Vidadi xəstə, əsla nəsli-insanda,
Vəli bihudə bir sözdür deyirlər laf arasında.

**YANAN EŞQ ATƏŞİNƏ QƏM YEMƏZ OL NARDƏN ARTIQ**

Yanan eşq atəşinə qəm yeməz ol nardən artıq,
Ki, yaxmaz nari-düzəx atəşi-rüxsardən artıq.

Mənə munca təvəhhüm çox verirsən ruzi-məhşərdən,
Qiyamət varmı, ey vaiz, fəraqi-yardən artıq?

Ayağım kəsməzəm laf ursa min səg yar kuyində,
Nə surət göstərir ol, surəti-əğyardən artıq.

Dirilmən dərdi-eşqü möhnəti-didarsız bir dəm,
Olardır həmdəmim firqətdə yüz qəmxardən artıq.

Vüsali-yardən gər müddəi yüz müddəa eylər,
Vidadi xəstənin könlündə yox didardən artıq.

## EY BADİ-SƏBA, MƏNDƏN OL YARƏ SALAM EYLƏ

Ey badi-səba, məndən ol yarə salam eylə,
Dərdü ələmim bildir dildarə, salam eylə.

Görsən üzün ol mahın, bas bağrına gərdun tək,
Dön başına yalvarə-yalvarə salam eylə.

Key bağı-behiştim, mən bir Adəmdim guya,
Düşdüm səri-kuyindən avarə, salam eylə.

Dərdü qəmi-hicranın hər ləhzə hücumundan
Axır ki, cigər oldu sədparə, salam eylə.

Gör xəstə Vidadinin daği-cigərin söylə
Ol lalə rüxə, çeşmi-bimarə salam eylə.

## ŞƏHA, MÜDDƏT CAHANI MƏN DƏ GƏZDİM, DƏRBƏDƏR GÖRDÜM

Şəha, müddət cahanı mən də gəzdim, dərbədər gördüm,
Tamaşa eylədim yaxşı-yamanı, xeyrü şər gördüm.

Görüb mərdümləri bitəcrübə, ey mərdüm, aldanma,
Məhəksiz bilmək olmaz qəlbini, çox simü zər gördüm.

Səxavət olmayan kəsdə şücaət fe'li-nadirdir,
Kərəmsiz kimsəni hər yerdə gördüm, bihünər gördüm.

Əkabirlərdə himmət, aşinalarda sədaqət yox,
Vəfa kuyin dolandım, mütləqa yox bir bəşər gördüm.

## SÖYLƏ CANANA, SƏBA, HALIM PƏRİŞAN OLDU, GƏL!

Söylə canana, səba, halım pərişan oldu, gəl!
Çıxdı can, sud etmədi hər necə dərman oldu, gəl!

Qasidi-bisidqə aldanma, yetir, hal özgədir,
Türfə şivənlər qopub üstümdə əfğan oldu, gəl!

Enmədən sinə vücudum, doldu qəbrim qan ilə,
Gördüyün nazik bədən xak ilə yeksan oldu, gəl!

Rəxti-tərdən incinən tən həmdəm olmuş mar ilə,
Üz tutub qarıncalar yollara karvan oldu, gəl!

Gördüyün zahir əl'əm tək şə'nü şövkət sahibi
İndi pəjmürdə düşüb torpağa, pünhan oldu, gəl!

Neçələr giryan olubdur bu Vidadi xəstə tək,
Didələr giryan olub çaki-giriban oldu, gəl!

## GƏL, EY VƏHDƏT QƏZALI, SƏN BU SƏHRADƏN NƏ İSTƏRSƏN?

Gəl, ey vəhdət qəzalı, sən bu səhradən nə istərsən?!
Xəyalın həmnişin oldu bu tənhadən nə istərsən?

Tutubsan surəti-Yusif, könül Misrində sultansan,
Vüsalın qiyməti keçdi Züleyxadən nə istərsən?

Sənin eşqin durur ruhum, bu zülfün əql gəncidir,
Apardın əqlimi, bəs ruhi-şeydadən nə istərsən?

Sən eşq əhlinə, ey zahid, məlamət etməyi tərk et,
Deyilsən sirrə vaqif, zöhdü təqvadən nə istərsən?

Vidadi xəstə, gəl ədnasüfət dünyayə meyl etmə,
Qıl əqlin var isə tərkin, bu dünyadən nə istərsən?

## YENƏ NAŞAD KÖNLÜM BULDU YÜZ YERDƏN MƏLAL, AĞLAR

Yenə naşad könlüm buldu yüz yerdən məlal, ağlar,
Rəvan eylər iki gözdən dəmadəm əşki-al, ağlar.

Könül şəhbazını əldən uçurdum, taqəti getdi,
Düşüb pərvazə meyl etməz, sınıbdır pərrü bal, ağlar.

Mənəm o bağibani-bağı-möhnət kafəti*-dövran,
Yıxıb gülzari-ömrümdən necə tazə nihal, ağlar.

Sirişkimlə xəyalım yadigari-ruzi-firqətdir,
Budur, vəchi ki, onu saxlaram hər mahü sal, ağlar.

Əziza, qaldı həsrət həşrə tək didar didarə,
Kəsildi hər tərəfdən, yox bir ümmidi-vüsal ağlar.

Demən fəryadi-zərimdə əbəs dağlara ün düşmüş,
İtirmiş gözlərim səyyadi bir türfə qəzal, ağlar.

Çətindir can bədəndən cismi-tər yanından ayrılmaq,
Odur bu gündə düşdükcə, Vidadi xəstəhal ağlar.

---

* Ki afəti

**NƏ MÜDDƏTDİR GÖZÜM RAHİNDƏDİR, YARIM, SƏN SƏFA GƏLDİN!**

Nə müddətdir, gözüm rahindədir, yarım, sən səfa gəldin!
Həbibim, sevgilim, yarım, nigarım, sən səfa gəldin!

Dili bülbül, ləbi mey, xali fülfül, zülfləri sünbül,
Mələkxu, yasəmənbu, gül'üzarım, sən səfa gəldin!

Yüzüm xaki-rəhində fərşdarəm, xoş qədəm basdın!
Şəhim, həm şəhriyarım, şəhsüvarım, sən səfa gəldin!

Xəyalım gülşəninə sayə saldın sərv qəddindən
Açıldı səbzələndi laləzarım, sən səfa gəldin!

Vidadi xəstə tək düşmüşdü biaram can sənsiz,
Vücudim, taqətim, səbrim, qərarım, sən səfa gəldin!

## YARƏB, BU GEDƏN SƏRVİ-SƏRƏFRAZ KİMİNDİR?

Yarəb, bu gedən sərvi-sərəfraz kimindir?
İnsan bu surətdə olur az, kimindir?

Xəlq içrə ki, yoxdur belə məqbulü müzəlləf,
Meydani-gözəllikdə bu sərbaz kimindir?

Qaşı, gözü, əndamı, təmamən əl ayağı,
Hər bir sümüyü başına yüz naz kimindir?

Munca ki, sərapa bəzənib dürlü cəvahir,
Zərrin qəba, simu sərəndaz kimindir?

Tuş oldu sənə, xəstə Vidadi, bu əcəldir,
Yoxsa ki, nə sözdür belə şəhbaz kimindir?

## NOVRUZI-BAHAR OLDU, CAHAN TAZƏTƏR OLDU

Novruzi-bahar oldu, cahan tazətər oldu,
Rəf oldu ələmlər.
Dağıldı bu şadlıq xəbəri dərbədər oldu
Yandı oda qəmlər.
Qırx yeddi rəqəm sındı zimistan qələmindən
Fürsət gülə düşdü.*
Meydani-tərəbdə bu nə türfə hünər oldu,
Sərf oldu kərəmlər.
Göydən yerə yağdı nə gözəl şəbnəmi-rəhmət
Bitdi gülü lalə.
Xoş nəğmələnib bülbüli-şeyda ötər oldu
Açıldı irəmlər.
Yüz həmdü səna, maili-seyri-çəmən oldu
Şad oldu könüllər.
Bir mövsimi-güldür bu ki, həqdən nəzər oldu
Xoş gəldi bu dəmlər.
Ey xəstə Vidadi, bu gün etməzmi sənə rəhm
Sultani-zəmanə?
Bu eydi-mübarəkdə ki dünya xəbər oldu
Saçıldı dirəmlər.

---

* Əbcəd hesabilə qırx yeddi "Z" və "M" hərfləridir. "Zmistan" kəlməsindən bu iki hərf düşəndə "stan" qalır. Fürsətgülə düşür, yəni "gül" "stan" ilə birləşib "gülüstan" əmələ gətirir.

**AH KİM, GÖR NEYLƏDİ**
**BU GƏRDİŞİ-DÖVRAN BU GÜN!**

Ah kim, gör neylədi bu gərdişi-dövran bu gün,
Eylədi bir növcavanı xak ilə yeksan bu gün.
Oldular matəm tutub xəlqi-cahan giryan bu gün,
Getdi bu dari-fənadan döndü çün dövran bu gün.
Rəkli xanın sevgili fərzəndi ol Livan bu gün.

Qopdu bir şivən sanasan çərxi-dövran ağladı,
Dözməyib bu möhnətə canı olan qan ağladı.
Xaçpərəstlər hər nə var, cümlə müsəlman ağladı,
Necə dil tutsun deyim bir hal ilə xan ağladı,
Atəşi-əfğanə yandı, külli Gürcüstan bu gün.

Cəm edib dörd yanına Gurgin xan mirzaləri
Bir-birilə danışır hər bir keçən sövdaləri,
Sındırıb düşmənləri, kor etdiyin ə’daləri,
Yada düşdükcə çıxar fəryadü vaveylaləri,
Eylə sanır xəlqi-aləm qopdu bir tufan bu gün.

Bu müsibət məhşərində ol Dedunalı görün,
Zəxmi-naxun, sinədə üzdə sirişk alı görün,
Fərş olub torpağa üz, bihuşü pamalı görün,
Naleyi-zarü fəğanı, böylə əhvalı görün,
Daş ola ağlar, necə tab eyləsin insan bu gün.

Qaldı onun necə həsrət tifli-nadan qızları,
Eyləyib xanı, Dedunalı ciyərqan qızları,
Kim görür əlbət olur giryanü suzan qızları,
Ağlasınlar cəm olub, şivən qurub xan qızları,
Tazələndi matəmi-Livan ilə Vaxtan bu gün.

Hər nə var təvadü ə'yan cümleyi-qullar tamam,
Ağlayıb göz yaş tökə, əfğan edə dillər tamam,
Yas tutub qarə geyinsin başətən ellər tamam,
Didələrdən dəmbədəm tökmək gərək sellər tamam,
Getdi onların sərindən sayeyi-Livan bu gün.

Neylədin, ey çərxi-dun, ol izzü rif'ət sahibin,
Fərdi-meydani-şücaət, şanü şövkət sahibin,
Novcəvani-pürhünər, mərdi-fütüvvət sahibin,
Sərnigün etdin yenə bir tacü dövlət sahibin,
Oldu onunçün pərişan, hər tərəf, hər yan bu gün.

Sərbəsər yanmaq gərək dünya, bəli, Livan üçün,
Şükr edib səbr eyləmək lazım yenə ol xan üçün.
Kəm deyil, mərdümləri kim dideyi-dövran üçün,
Etməsin həq başımızdan sayəsin nöqsan bu gün.

Bu bir atəşdir, buna dözməz çox ərlər, yandırır,
Endirir mürğü həvadən, balü pərlər yandırır,
Dağlar da tab eyləməz, səngü şəcərlər yandırır,
Bu müsibət doğrudur canü ciyərlər yandırır,
Həq bilir başdan-ayağa yandı gör Sevan bu gün.

## GƏL ÇƏKMƏ CAHAN QEYDİNİ SƏN, CAN BELƏ QALMAZ

Gəl çəkmə cahan qeydini sən, can belə qalmaz,
Qan ağlama çox, dideyi-giryan belə qalmaz.
Gül vaxtı keçər, seyri gülüstan belə qalmaz,
Hər ləhzə, könül, xürrəmü xəndan belə qalmaz,
Bir cam yetir, saqi, bu dövran belə qalmaz,
Tən bir gün olur xak ilə yeksan, belə qalmaz.

Əzbəs bu camal ilə ki, canan ola fani,
Bu şivə ilə qəddi-xuraman ola fani,
Bu gərdəni-xoş, zülfi-pərişan ola fani,
Bu əhsəni-surətdə ki, insan ola fani,
Bir cam yetir, saqi, bu dövran belə qalmaz,
Tən bir gün olur xak ilə yeksan, belə qalmaz.

Sultani-cahan olsa, gedər, canə inanma,
Bir gün pozulur, şövkətü divanə inanma,
Çün baqi-deyil, mülki-Süleymanə inanma,
Gər aqil isən, gərdişi-dövranə inanma,
Bir cam yetir, saqi, bu dövran belə qalmaz,
Tən bir gün olur xak ilə yeksan, belə qalmaz.

Yüz mövsümi-xoş xürrəm olub illər açılsa,
Yüz lalə bitib susənü sünbüllər açılsa,
Yüz bağı-cahan tazələnib güllər açılsa,

Könlüm ki, açılmaz neçə müşküllər açılsa,
Bir cam yetir, saqi, bu dövran belə qalmaz,
Tən bir gün olur xak ilə yeksan, belə qalmaz.

Ah, aldı məni dərdi-fəraqü qəmi-həsrət,
Sərməstü xərab etdi yenə badeyi-heyrət,
Bir mehrü vəfa etməli yox kim ola rəğbət,
Fövt eyləmə, gəl var ikən əldə dəmi fürsət,
Bir cam yetir, saqi, bu dövran belə qalmaz,
Tən bir gün olur xak ilə yeksan, belə qalmaz.

## MÜSİBƏTNAMƏ

### GƏL, KÖNÜL, BİR İBRƏT AL
### BU GƏRDİŞİ-DÖVRANƏ BAX

Gəl, könül, bir ibrət al bu gərdişi-dövranə bax,
Cami-heyrətdən dəmi məxmər olub məstanə bax,
Tut təfəkkür damənin bir dəm dili-heyranə bax,
Kimsəyə qılmaz vəfa bu dəhri-bipayanə bax,
Olma mə'murinə rəqib, axiri viranə bax.

Bivəfadır, mülki-dünya malına aldanma çox,
İzzü cahü dövlətü iqbalına aldanma çox,
Tutma ümmid əqlü fəhm əhvalına aldanma çox,
Qövmü qardaşü rəfiq əqvalına aldanma çox,
Hər biri bir rəmz ilə səndən olur biganə bax.

Şərhi bimümkün gəlib-getmiş cahana çox hümam,
Hər biri əsrində bir sahibhünər, aliməqam,
Şah ola, istər gəda, divanə, ya əhli-nizam,
Yetməmiş məqsudinə aləmdə heç ərbabi-nam,
Cümləsin məqtul edib bu bisərü samanə bax.

Dinlə, ey tuğyani-möhnət, bir rəvayət söyləyim,
Didələr giryan edən şərhi-məlamət söyləyim,

Dərdi-bidərmanü daği-binəhayət söyləyim,
Bu sözə nisbət sənə gəl bir hekayət söyləyim.
Lütf edib qıl bir nəzər bu müxtəsər dəstanə bax.

Noldu gör ol sərvəri-dövran, əmiri-möhtərəm,
Mənbəi-cudü səxavət, mədəni-lütfü kərəm,
Mərdi-meydan, əhli-ürfan, sahibi-tiğü qələm,
Ərseyi-rəf'ətdə guya kim, tikilmiş bir ələm,
Hakimi-Şirvan-Şəki, yə'ni Hüseyn xanə bax.

Şir-dil bir mərd idi çox, şövkətü şə'ni əzim,
Səfşikən, ə'dafikən, şəmşirzən, bixovfü bim.
Sərvəri-sahib həşəm, ətbai çox, mülki qədim,
Xoşnüma, xəndan liqa, şirin süxən, təbi həlim,
Neylədi, gəl gör, müqəddər hikməti-yəzdanə bax.

Haqpərəst, əhli-təvəkkül, pak dil, safi-cigər,
Baki yox heç kimsədən, cahü cəlalı biqədər,
Bilməmiş rəşkü həsəd insanı eylər dərbədər,
Bağlamış onunla kin ə'lavü ədna sərbəsər,
Saldılar hər rəng ilə də'va tutub böhtanə bax.

Hacı Əbdülqadirü Hacı Məhəmməd kinədar,
Saldılar yüz dürlü də'va, oldular ondan fərar,
Etdilər ol dəmdə Dar doqqazı səngər istivar,
Tapdı düşmən hər tərəf üz, oldu qovğa aşikar,
Buldular fürsət, tamami girdilər meydanə bax.

Kəndxudalar göndərib oğlilə çox and eylədi,
Etmədi bir sud hərçənd əhd-peyvənd eylədi,
Hacı Əbdülqadir ol dəm gör necə fənd eylədi,
Tutdu onların təmamın, yerbəyer bənd eylədi,
Verdi Ibrahim xana, tez saldılar zindanə bax.

Gör nələr gəldi o dəm, Hacı Məhəmməd başına,
Tutdurub həm onu dəxi qoydu qəl'ə daşına,
Qaldı bir il verdi can axir əcəl pürxaşına,
Böylədir hər kim olursa xain öz yoldaşına,
Getdi hər nə var isə mərdümliyi məccanə, bax.

Ol Qarabağ hakimi dövləti Ibrahim xan,
Əvvəlü axir onunla ta yaman idi, yaman,
Gördü fürsət gəldi, fövt etmək deyil əqlə nişan,
Oldu Əbdülqadir ilə müttəfiq həm ol zaman,
Yığdılar bihədd ləşkər, car edib hər yanə bax.

Qıldı bu sərriştədə hər hal ol sə'yü əmək,
Etmədi təqsir hər dəm verdi simü zər, yemək,
Gəldilər Carü Tala bəylər təmami binəmək,
Keçdi çox cənglər aradan, tul olur şərh eyləmək,
Öldü əvvəl Hacı xan tək növcəvan fərzanə bax.

Çəkdi ümmə xanü Əhməd xan, Cönkətay çəri,
Hər biri Dağıstan içrə külli-ləşkər sərvəri,

Biləsincə necə başçı, cümləsi meydan əri,
Bir tərəfdən göndərib topxanə verdi ləşkəri,
Arxa durdu onlara valiyi-Gürcüstanə bax.

Eylədi hər bir qoşun gəldikcə bir dürlü savaş,
Hər tərəfdən qoydular can almağa meydanə baş,
Keçdi müddət, düşdü xalqa eylə bir qəhti-məaş,
Olmayıb bir böylə zillət mütləqa aləmdə faş,
Gəlməyib böylə müsibət Rumə, ya Iranə bax.

Artdı qovğa üz verib hər ləhzə bir cəngü cidal,
Elə kim gəlməz hesaba oldu məqtulü qital,
Gördü kim ol mərdi-meydani-bəla, ol pürməlal,
Günbəgün etməkdədir əyyam onu aşüftəhal,
Dəmbədəm salmaqdadır dövran onu nöqsanə bax.

Fətəli xan yanına əzm etdi ol hicrət qılıb,
Neylədi ol mərd gör, əda ikən hörmət qılıb,
Çəkdi ləşkər biləsincə neçə yol qeyrət qılıb,
Etdi mə'yus onu həm iqbal, binüsrət qılıb,
Neyləsin insan əgər yar olmasa sübhanə bax.

Gah Ağası xan Şirvan hakimilə bir zaman,
Baş qoyub ə'dayə qarşı atdılar meydanə can,
Eylə bir cəng etdilər kim, su yerinə axdı qan,
Hasili ol dərdiməndə vermədi nüsrət, inan,
Atəşi-meydanlara etdi özün pərvanə bax.

Döndü çün iqbalü dövlət gəlmədi pərva ona,
Olmadı hər yana üz tutdusa bir mə’va ona,
Hər nə var yarü müsahib oldular ə’da ona,
Hər tərəfdən verdilər qətl etməyə fitva ona,
Cümlə xunxarü nəməksiz ol Şəki, Şirvanə bax.

Gör necə döndü tamaşa qıl onun əqranına,
Aşkaravü nihan qəsd etdilər ta canına.
Duydu halı hər tərəfdən yığdı ləşkər yanına,
Olmadı, çün çarə yox haqdan işin imkanına,
Hər nə tədbir ilə sə’y etdisə ol mərdanə bax.

Cəm olub qətlinə onun bir neçə əşrarlər,
Bilməyən nanü nəmək, bihörmətü biarlər,
Ölməyə, öldürməyə bərk etdilər iqrarlər,
Cümlə öz əqvamü əqranı tamam xunxarlər,
Qövmü qardaşa inan, gəl, dosta bax, yaranə bax.

Bir günorta vaxtı xali buldular fürsət məgər,
Qalmamış getmiş dərində hiç dərbandan bəşər,
Doldular ol xabi-qəflətdə yatarkən bixəbər,
Belədir təqdir “iza caəl qəza ə’məl-bəsər”,*
Özgə fikrə düşmə çox, haqdan gələn fərmanə bax.

---

* Qəza gələndə göz kor olar.

Çıxdı ta olcaq xəbər ə’dayə qarşı bidirəng,
Bir zaman naçarü tənha eylədi şiranə cəng,
Neyləsin, yox dəsti-bəxt, iqbalü nüsrət payi-ləng,
Hər tərəfdən üstünə yağdırdılar tiğü tüfəng,
Aqibət məcruh olub, qərq oldu əlvan qanə bax.

Etdilər sülh üzrə ol dəm bir neçə qövlü qərar,
Oldu razı, bildi yalan olduğun biixtiyar,
Saxlayıb bir həftə axır qətl edib məcruhü zar,
Külli-varın etdilər taracü yəğma, tarümar,
Əhli-beyti cümlə düşdü növhəvü nalanə bax.

Əl qoyub cümlə fəsadə tikdilər şeytan evin,
Etdilər guya xərabə din evin, iman evin,
Açdılar babi-fəsad, bağladılar ehsan evin,
Qırdı öz övladını, yıxdı onun sübhan evin,
Hacı Qadir tək cahanın fitnəsi şeytanə bax.

Gəl yetər, ey zülmə rağib, səngdil, səxtciyər,
Munca xunriz olma, eylə zülmi-nahəqdən həzər,
Yadına gəlməz məgər ruzi-cəza, ey bixəbər,
Noldu, haqdan bir zaman şərm eylə, çıx şamü səhər
Guş edib məzlumlərdən ol gələn əfğanə bax.

Ah kim ta aləm olmuş, mehrü mahın mənzili,
Eylənmiş rövşən dili, ahi-siyahın mənzili,

Gəh düşər nisbət gədayə padişahın mənzili,
Gəhi şiri-nər yerin eylər rubahın mənzili,
Dövri-bər'əksə nəzər qıl, çərxi-kəcgərdanə bax!

Kimsə qalmaz nikü bəd, ancaq qalır aləmdə ad,
Namurad eylər cahan, hər kim ki istər bir murad,
Bu "Müsibətnamə" tarixin bil, ey fərrux-nihad,
İki yeddi, iki qırx olmuşdu min yüzdən ziyad*,
Oldu mərhumü şəhid ol gövhəri-yekdanə bax.

Belədir dövran işi, hər gündə bir al eyləmiş,
Aqili nadan ilə pəjmürdə əhval eyləmiş,
Üz verib namərdə, hərdəm mərdi pamal eyləmiş,
Ey Vidadi, gəl ki, bu heyrət məni lal eyləmiş,
Gör nələr qıldı fələk Müştaq tək insanə, bax.

---

* Min yüz doxsan dördüncü il – miladi 1779-cu il

## VAQİFLƏ MÜŞAİRƏ

Vaqif

Ey Vidadi, sənin bu puç dünyada
Nə dərdin var ki, zar-zar ağlarsan?
Ağlamalı günün axirətdədir,
Hələ indi səndə nə var, ağlarsan?

Vidadi

Vaqif, nə çox yan baş-ayaq atarsan,
Mənə dersən nə bu qədər ağlarsan?
Sənin də başında məhəbbət beyni,
Əgər olsa, eylər əsər, ağlarsan!

Vaqif

Ta cəsədin cüda olmayıb candan,
Bil özünü artıq sultandan, xandan.
Qəriblik, ayrılıq nədir ki, ondan
Bu qədər çəkibən azar, ağlarsan?

Vidadi

Ağlamaq ki, vardır məhəbbətdəndir,
Şikəstə xatirlik mərhəmətdəndir.
Əsli bunlar cümlə mürüvvətdəndir.
Olsa ürəyində betər ağlarsan!

Vaqif

Say qənimət diriliyin dəmini,
Keçən həmdəmlərin çəkmə qəmini,
Əqlin olsun, sil gözünün nəmini,
Dəxi geri gəlməz onlar, ağlarsan!

Vidadi

Ağlamaq möminin əlamətidir,
Nəbinin dininin xoş adətidir,
Əgər bilsən həqqin kəramətidir,
Ta gedincə nuri bəsər ağlarsan!

Vaqif

Əlindən kəndini aldıran fələk,
İnəklərə buzov saldıran fələk,
Yarü yoldaşını öldürən fələk
Məgər səni boylə qoyar ağlarsan?

Vidadi

Neylərsən söyləmiş buzov-inəyi,
Bizimlə eyləmiş belə hənəyi,
Həzrətqulu bəyin ağ dəyənəyi,
Alıbsan əlinə məgər, ağlarsan.

Vaqif

Kimdir indi bu dövrdə ol adəm,
Pərisi yanından heç olmaya kəm,
Qaralırsan bulut kimi dəmadəm,
Ağ yağış tək yaşın yağar, ağlarsan!

Vidadi

Billəm çox uşaqsan, ürəyin toxdur,
Ləhvü ləəb ilə həvəsin çoxdur.
Qocalıq əsəri könlündə yoxdur,
Hələ sonra əqlin kəsər, ağlarsan.

Vaqif

Toy-bayramdır bu dünyanın əzabı,
Əqli olan ona gətirər tabı,
Sənin tək oğlana deyil hesabı,
Hər şeydən eyləyib qubar, ağlarsan.

Vidadi

Oğlan, sən uşaqsan, cavansan hələ,
Yenicə cisminə düşüb vəlvələ,
Tazəcə dəyənək alıbsan ələ,
Qayim tut ki, nagah düşər ağlarsan.

Vaqif

Bidəmağ olmaqdan nə düşər ələ,
Şükr eylə Allaha, gəz gülə-gülə!
Uşaq ha deyilsən tez-tez, habelə
Könlünün şişəsi, sınar, ağlarsan!

Vidadi

Uzaqdan bax, yaxşı fəhm et satirə,
Bu iş baxmaz heç könülə, xatirə,
Istər yüz il bu yollarda qatirə,
Bir gün yanar canü ciyər, ağlarsan.

Vaqif

Keçən işdən mərd igidlər pozulmaz,
Atalar deyiblər, tökülən dolmaz.
Qatıq üçün qışda ağlamaq olmaz.
İnşallah gələr bahar, ağlarsan.

Vidadi

Dövlətindən yetdik nanü nəməgə,
Düşdük indi cadü qatıq yeməgə,
Söz ki, çoxdur yeri yoxdur deməgə,
Əgər bilsən, ey bixəbər, ağlarsan.

Vaqif

İç qatığı, ye darının cadını,
. . . . . . . . . . . . . . . .
Neylərsən dövranın dadlı zadını,
Sənə nə olur o zəhrimar, ağlarsan.

Vidadi

Ey mənə göstərən qatığı, cadı,
Onu yeyən tapar külli muradı,
Dünyanın sənə də ləzzəti, dadı,
Bir gün olur axır zəhər, ağlarsan.

Vaqif

Necə ki, dirisən, ölü deyilsən,
Qocalıban yaylar kimi əyilsən,
Padişahsan əgər özünü bilsən,
Neçin olub candan bezar, ağlarsan.

Vidadi

Elə ki, taxıldı burnuna çeşmək,
Qocalıq əl verib dəxi nə şişmək...
Uşaqlar içinə düşər gülüşmək,
Sənin də acığın tutar, ağlarsan.

Vaqif

Yavuz çox qocalan bayatı sevər
Gah öyünü, tək-tək özündən deyər,
Sən də yetişibsən o həddə məyər,
Beyninə bayatı uyar, ağlarsan.

Vidadi

Külli-Qarabağın abi-həyatı,
Nərmü nazik bayatıdır, bayatı,
Oxunur məclisdə xoş kəlimatı,
Ox kimi bağrını dələr, ağlarsan.

Vaqif

Müxəmməs deməyin seyrəklənibdir,
Bayatıda zehnin zirəklənibdir,
Qocalıbsan, qəlbin köyrəklənibdir,
İşdən, gücdən olub bekar, ağlarsan.

Vidadi

Gəl danışma müxəmməsdən, qəzəldən,
Şe'ri-həqiqətdən, mədhi-gözəldən,
Sənin ki, halını billəm əzəldən,
Elə deyib canan, dilbər, ağlarsan.

Vaqif

Yetmişdə ki, belə nəm gələ gözə,
Kəsməyə arasın baxmaya sözə,
Ol zaman ki, yaşın yetişər yüzə
Gəl, gör, onda nə bişümar ağlarsan.

Vidadi

Sarı Çobanoğlu gəlsin yanına,
Axund deyə canın qatsın canına,
Xanın şövkətinə, sənin şanına,
O yaxşı müxəmməs düzər, ağlarsan.

Vaqif

Nədəndi bənizin heç olmur duru,
Sovulub bostanın olubdur uru,
O zaman ki, sənə... . . . . . .
Gözlərin çanaqdan çıxar, ağlarsan.

Vidadi

Dərdlərinə dərman olmaz heç kəsin,
Əbubəkrə hərgiz yetişməz səsin,
Mitilin altında qalır nəfəsin,
Mürği-ruhun göyə uçar, ağlarsan.

Vaqif

Bir gün çəkər qabağına Əzrail,
Deyər: ey kor bəndə, qəflətdən ayıl!
Görərsən bir qərib şəklü şəmail,
Ürəyinə qanlar damar, ağlarsan.

Vidadi

Əzrail ki, çəngəl çalar canına,
Çevrilib baxarsan hər bir yanına,
Ol zamanda sənin ah, əfğanına,
Nə bir gəlin, nə qız yetər, ağlarsan.

Vaqif

Onun çəngəli ki ə'zayə düşər,
Çaxnaşar cəsədin lərzayə düşər,
Tamam sümüklərin vay-vayə düşər,
Diriykən dərini soyar, ağlarsan.

Vidadi

Axirət sözünü salma yadına,
Dürüst deyil mütləq e'tiqadına,
Məhşər günü kimsə yetməz dadına,
Fəryadın fələyə çıxar, ağlarsan.

Vaqif

Yanarsan təpədən çıxar tütünün,
Tutuşar boğazın, kəsilər ünün,
Hələ vardır bundan betər pis günün,
Üqbayə edəndə səfər, ağlarsan.

Vidadi

Mö'min olub qəlbin olsaydı səlim,
Bilərdin xudanın olduğun kərim,
Sənə kərəm eylər əzizü həkim,
Nə çəkərsən xovfü xətər, ağlarsan!

Vaqif

Çün gedərsən o qaranlıq dar yerə,
Qonşu olmaz çağıranda səs verə,
Bir kimsə tapılmaz qapından girə,
Görərsən dörd tərəf divar, ağlarsan.

Vidadi

Mö'minəm zikrimdir daim ilahi,
Uzaqdır könlümdən külli-mənahi,
Əfv olur mö'minin cümlə günahi,
Sənin də könlündən keçər, ağlarsan.

Vaqif

Zahir olur iki şəxsi-qəzəbnak,
Əllərində şeşpər, çapikü çalak,
Onları görəndə zəhrin olur çak,
Qutun qurur, nitqin batar, ağlarsan.

Vidadi

Münkir sözü, sual sözü, sin sözü,
Söz bir gərək, nə danışmaq min sözü,
Dünya axirətdən belə din sözü,
Əlin yoxdur, bəs müxtəsər, ağlarsan.

Vaqif

Bu yanından çıxar o zalım şeytan,
Su göstərər səndən ta ala iyman,
Nə Ömər tapılar, onda nə Osman
Hər biri bir yanda batar, ağlarsan.

Vidadi

Məzarın, məhşərin həqdir cəhəti,
Məhrum qalmaz Məhəmmədin ümməti,
Sən ki, tərk edibsən tamam sünnəti,
Çox çəkərsən qəzəb, qəhər ağlarsan.

Vaqif

Çünki işin çəp düşübdür əzəldən,
Fayda olmaz işlədiyin əməldən,
Mələk verər dəftərini sol əldən,
Günahını bir-bir sayar, ağlarsan.

Vidadi

Mələklər ki, gələr sahib izzətdən,
Ayıra mö'mini asi millətdən,
Görər ki, deyilsən əhli-sünnətdən,
Səni yolum-yolum yolar, ağlarsan.

Vaqif

O gündə ki, qaçar pədərdən püsər,
Gövdənə çulğaşar yalav sərbəsər,
Su verməz içəsən saqiyi-kövsər,
Kabab təki bağrın yanar, ağlarsan.

Vidadi

Əvvəl Bubəkrdir peyğəmbərə yar,
Ömərdir islamı eyləyən izhar,
Osmani-Zinnureyn, heydəri-Kərrar,
Olarlar saqiyi-kövsər, ağlarsan.

Vaqif

Çün töhmət edibsən o həştü çara,
Əlin necə yetər sənin onlara,
Qapılarda dolanırsan avara,
Gör başına gələr nələr, ağlarsan.

Vidadi

Əbubəkrü Ömər, Osmanü Əli,
Cümlə həştü çəhar imamü vəli,
Ne'manü Şafei, Malik, Hənbəli,
Onları cəmiən gəzər, ağlarsan.

Vaqif

Ol zaman ki, qaynar kəllədə beyin,
İmam Əzəm danar sözün, hər şeyin,
Heç üzə mən baxa bilmənəm deyin,
Səni görcək gözün yumar, ağlarsan.

Vidadi

Allahın ki, heç çəkməzsən minnətin,
Tərk edibsən peyğəmbərin sünnətin,
Nə görərsən mə'sumların hörmətin,
Əgər ağlamazsan, əgər ağlarsan.

Vaqif

Həştü çəhar çün halını duyarlar,
Sanma səni öz halına qoyarlar,
Əvvəl onlar səni diri soyarlar,
Sümüyünü ta gömərlər, ağlarsan.

Vidadi

O zaman ki, məhşər xalqı durarlar,
Divan olub sorğu-sual sorarlar,
Əgər səni bu məhzəbdə görərlər,
Yerbəyer budayıb əzər, ağlarsan.

Vaqif

Demə ki, dadıma yetər Maliki,
Dərdə düşər səndən betər Maliki,
Qaçar ilim-ilim itər Maliki,
Yaşınıb bir yerdə yatar, ağlarsan.

Vidadi

Həşrədək qalarsan ahü zar ilən,
Həsrət ilən, çox-çox intizar ilən,
Kələz ilən, əqrəb ilən, mar ilən
Ağzınadək qəbrin dolar, ağlarsan.

Vaqif

Çox kimsələr qıl körpüdən asılar,
Hənbəlinin qaravulu basılar,
Qorxusundan bir bucağa qısılar,
Dinə bilməz mat-mat baxar, ağlarsan.

Vidadi

Həsən Kaşinin ta başın kəsərlər,
Kəsib onu cəhənnəmdən asarlar,
Qızdırıb-qızdırıb oda basarlar,
Onu görüb əqlin çaşar, ağlarsan.

Vaqif

Şafeinin olmaz o qədər suçu,
Əvvəldən axıra ayrıdır köçü,
Gələr fəriştələr, amma bu üçü,
Tutar bir-birinə çaxar, ağlarsan.

Vidadi

Şafeini imamlardan ayırma,
Ümmə xanı görüb riya qayırma,
Bu sözləri ləzgi içrə buyurma,
Səni qalmıqlara satar, ağlarsan.

Vaqif

Qəbirdən ki, çıxıb gedərsən Şama,
O günlərin dönər toya, bayrama,
Əlin yetməz peyğəmbərə, imama,
Qiyamət başına qopar, ağlarsan.

Vidadi

Qapılarda çox toxuna-toxuna,
Ömərdən, Osmandan gəzmə saxına,
Olarsız ki, heç qoymazlar yaxına,
Döyə-döyə öldürərlər, ağlarsan.

Vaqif

Əqlin olsun, on iki imama inan,
Fayda verməz sonra olmaq peşiman,
Yəqin bil ki, qurulacaqdır mizan,
Əməlin qarşında durar, ağlarsan.

Vidadi

İmamlar ha deyil sənin yoldaşın,
Olsaydı gözündə olardı yaşın,
Sən əqildə vardı neçə qardaşın,
Olur-olsun, sən müqərrər, ağlarsan.

Vaqif

Vaxtkən, dəli olma, gəl eşit məndən,
Gəzmə yalvar-yapış onlara gendən,
Amma qorxun olsun Əbülhəsəndən,
Səni əzim-əzim əzər, ağlarsan.

Vidadi

Qulluq etməyibsən Əbülhəsənə,
Gələ, o günündə yar ola sənə,
Yetişməz dadına heç bir kimsənə,
Qalarsan naəlac, naçar, ağlarsan.

Vaqif

Axır sənin necə haldır, bu halın,
Hansı mətləbdədir fikrü xəyalın?
Vədə günü atın, qoyunun, malın,
Əgər doğmaz, əgər doğar, ağlarsan.

Vidadi

Çün sevməzsən atı, qoyunu, malı,
Eşitməzsən hərgiz bu qalmağalı,
Bəs nədir yığıbsan neçə əyalı,
Doğmaz şad olarsan, doğar ağlarsan.

Vaqif

Heç axtarma şahi-heydər Əlini,
İmami-hümamı tamam vəlini,
Yığ başına təpik atan dəlini,
Olar ki, bir-birin qırar, ağlarsan.

Vidadi

Tanırsan Şəmkirli dəli qazini,
Həsəni-Kaşini, Nəsir Tusini,
Tərki-sünnət olan tamam asini,
Görərsən duzəxə girər, ağlarsan.

Vaqif

İmam ki, iraqdır e'tiqadından,
Tamam bildiklərin çıxar yadından,
O zaman çəkilər ah nihadından,
Fəryadın fələyə çıxar, ağlarsan.

Vidadi

Olan peyğəmbərin doğru rahında,
Xuda saxlar onu öz pənahında,
Səni hər kim görər həq dərgahında
Qatar qabağına qovar, ağlarsan.

Vaqif

Başına cəm olub əqlin yığılmaz,
O səbəbdən dərdin, qəmin dağılmaz,
Sənin malın buzov salıb, sağılmaz,
Hər kəs inəyini sağar, ağlarsan.

Vidadi

Şeytan ki, dünyada aldadır kimi,
Xoş gəlir o kəsə dünyanın dəmi,
Çox yığma başına huri, sənəmi,
Qafil özgələrə gedər, ağlarsan.

Vaqif

Cəhənnəmə getsin gedən həmdəmlər,
Olar üçün çəkmə sən munca qəmlər,
Keçən günləri ki, indi bu dəmlər,
Dəli könül əbəs anar, ağlarsan.

Vidadi

Göz neçin ağlayıb tökməsin nəmi,
Heyvan ha deyil ki, çəkməyə qəmi,
Əqlin olsa anıb yarü həmdəmi,
Leylü nahar, şamü səhər ağlarsan.

Vaqif

Həqqi-peyğəmbərə o çaryarə,
Tamam imamlara, həştü çəharə
Uymasan, yanarsan duzəxdə narə,
Kimsə olmaz sənə yavər, ağlarsan.

Vidadi

Nahaq yerə əhli-həqqə dəyənlər,
Peyğəmbərin doğru yolun əyənlər,
Azğın-azğın çaryarə söyənlər,
Çaqqal tək duzəxdə ular, ağlarsan.

Vaqif

Nə yaradır ürəyinin yarası,
Bu vaxtadək olmayıbdır çarası,
Uzun illər kəsilməyib arası,
Şamü səhər, leylü nahar ağlarsan.

Vidadi

Bir göz ki, ağlamaz həm tökməz yaşı,
Əlbəttə, xalidir beyini, başı,
Olmasa, yad eylər yarü yoldaşı
Hərdəm ki, yadına düşər, ağlarsan.

Vaqif

Ol qədər dolandın sağdan və soldan,
Dövlətli xanı da çıxardın yoldan,
Qoymadın ki, verə parçadan, puldan,
Səni xəl'ət əhli tutar, ağlarsan.

Vidadi

Çox bulanma bu dünyanın qanına,
Vəfa yoxdur sultanına, xana,
Danasını bir gün qoymaz yanına,
Bizim inək təki təpər, ağlarsan.

Vaqif

Dünya işində ki, qoçaqsan, qoçaq,
Ölüdən qıvraqsan, diridən qaçaq,
Bir gün sağ olursan, yeddi gün naçaq,
Övrətlər bağrını üzər, ağlarsan.

Vidadi

Səni qamışlıqda yaşıran fələk,
Əqlini başından çaşıran fələk,
Meyxanədən tez-tez düşürən fələk,
Belə qoymaz gün sürər, ağlarsan.

Vaqif

Öləndən sonra da güruhi-naci,
Məzarına salmaz sayə qiyğacı,
Özündən irəli çürük ağacı
Ağzının üstündən çəkər, ağlarsan.

Vidadi

Allah rəbbimdir, Məhəmməd şəfi
Küllühalə oldur əlimü səmi,
Deyilmi yəğfiruzzünubi cəmi,
O gündə gözlərin görər, ağlarsan.

Vaqif

Minərsən qatırı, sürə bilməzsən,
Yolun altın, üstün görə bilməzsən,
Xan gələr yerindən dura bilməzsən,
Qəl'əbəyi qolundan tutar, ağlarsan.

Vidadi

Ağqız oğlu Piri dünya qardaşın,
Hatəmxan ağadır sində yoldaşın,
Sarı Çobanoğlu gözəl dindaşın,
Nə çəkərsən sən dərdü sər, ağlarsan.

Vaqif

Soruşarlar səndən neçə xəbəri,
Üstünə çəkərlər tiğü təbəri,
Söylərsən sözünü dəli-sərsəri,
Hər ləhzədə həzar-həzar ağlarsan.

Vidadi
Münkir, nəkir necə olsa ötüşər,
Sor ki, sonra işin hara yetişər,
Divar gələr bir-birilə bitişər,
Səni oyum-oyum oyar, ağlarsan.

Vaqif

Qıl körpüdən ta ki, sürşər ayağın,
Cəhənnəm xovfindən yarılar yağın
Qorxma yenə Əli olar dayağın,
Əgər anıb həştü çəhar ağlarsan.

Vidadi

Oxuram gər cürmüm var isə əzim,
İnəllahə hüvvət təvvabür-rəhim,
Həqqin olduğuna qəniyü kərim,
Əzəl etməyibsən bavər, ağlarsan.

Vaqif

Vaqif, gərçi əzabı var dünyanın,
Sən neçin xovfini çəkərsən anın,
Tutubsan ətəyin Şahi-mərdanın,
O gülər gülərsən, ağlar ağlarsan.

Vidadi

Şiə xalqı tamam dolar duzəxə,
Qalarlar duzəxdə od yaxa-yaxa,
Mahaldır ki, biri duzəxdən çıxa,
Cümlə olar zirü zəbər, ağlarsan.

Vaqif

Əhli-sünnət vəl-cəmaət peyvəstə,
Gedərlər cənnətə dəstəbədəstə,
O gündə şad olar Vidadi xəstə,
Səni yanlış görüb gülər, ağlarsan.

MADDEYİ-TARİXLƏR

I

Gəl olma, ey Vidadi, çox bivəfayə müştaq,
Heç kəs bu pur cəfadən çıxmadı qəlbi yığnaq,
Fövtündə fövqi əhval bu misra oldu tarix
Məqbuli-seyri-firdövs Əhməd Sultan Qəzzağ*.

II

Pəri xanım vəfatından bu misra gəldi xoş tarix
Vidadi, oldu hasil ol Pərinin məskəni cənnət.

* Bu maddeyi-tarixlər Füzuli rayonunun Aşağı Ayıbasanlı kəndi yaxınlığındakı qəbiristanlıqda dəfn olunan Əhməd Sultan adlı bir qazaxlının və onun qızı Pəri xanımın qəbir daşlarına yazılmışdır. Bunları tarix elmləri doktoru M.S.Nemətova müəyyənləşdirib oxumuşdur. Ilk dəfə tarix elmləri namizədi Ənvər Şükürzadənin məqaləsində 1969-cu ildə "Azərbaycan" jurnalının 4-cü nömrəsində çap olunmuşdur. Əhməd Sultanın maddeyi-tarixi hicri 1209 (1794-95), ikinci isə 1206 (1891-92)-cı illərdə yazılmışdır.

**İZAHLAR**

*Səh.17.*

Vidadinin bu qoşmasına dostu Vaqif aşağıdakı nəzirəni yazmışdır.

Bir zaman havada qanad saxlayın,
Sözüm vardır mənim sizə, durnalar!
Qatarlaşıb nə diyardan gəlirsiz,
Bir xəbər versəniz bizə, durnalar!

Sizə müştaq durur Bağdad elləri,
Gözləyə-gözləyə qalıb yolları,
Asta qanad çalın, qafil telləri,
Heyifdir salarsız düzə, durnalar!

Xeyli vaxtdır yarın fərağındayam,
Pərvanə tək hüsnün çırağındayam,
Bir ala gözlünün sorağındayam,
Görünürmü görün gözə, durnalar!

Mən sevmişəm ala gözün sürməsin,
Bədnəzər kəsibən ziyan verməsin,
Sağın gəzin laçın gözü görməsin,
Qorxuram səfnizi poza, durnalar!

Nazənin-nazənin edərsiz avaz,
Ruhlar tazələnir olur sərəfraz,
Vaqifin də könlü çox edər pərvaz,
Hərdəm sizin ilə gəzə, durnalar!
*Səh.52*.

Vidadinin bu mənzum məktubuna Vaqif belə cavab vermişdir:

Vidadidən gələn kağız məni fərxəndə hal etdi,
Bu halı gördü qəm filhal məndən intiqal etdi.

Uçub könlüm quşu pərvaz qılsa ovci-ə'laya,
Əcəb yox kim, bu məktubu özünə pərrü bal etdi.

Ziyayi-şəms tək yetdi məni bədr eylədi, hala,
Əgərçi qəddimi dövran filmazi hilal etdi.

Səvadi-namənin, ey dil, məgər zülməti-heyvandır,
Ki, ruhum Xızr tək ondan bəsa kəsbi-kamal etdi.

Xəyal etmişdi Vaqif kim, rəvan bir xoş qəzəl yazsın,
Rəvan olmuşdu qasid kim, bunu ancaq xəyal etdi.

Vaqif, 1797-ci ildə Ağa Məhəmməd şah Qacar öldürülüb həbsdən azad olduqdan sonra Vidadiyə aşağıdakı mənzum məktubu göndərmişdir:

Ey Vidadi, gərdişi-dövrani-kəcrəftarə bax!
Ruzigarə qıl tamaşa, karə bax, kirdarə bax!

Əhli-zülmü necə bərbad eylədi bir ləzhədə,
Hökmü adil padişahi-qadirü qəhharə bax!

Sübh söndü şəb ki, xəlqə qiblə idi bir çırağ,
Gecəki iqbalı gör, gündüzdəki idbarə bax!

Taci-zərdən ta ki ayrıldı dimaği-pürqürur,
Payimal oldu təpiklərdə səri-sərdarə bax!

Mən fəqirə əmr qılmışdı siyasət etməyə,
Saxlayan məzlumu zalimdən o dəm qəffarə bax!

Qurtaran əndişədən ahəngəri-biçarəni,
Şah üçün ol midbəri təbdil olan mismarə bax!

İbrət et Ağa Məhəmməd xandan, ey kəmtər gəda,
Ta həyatın var ikən nə şahə, nə xunxarə bax!

Baş götür bu əhli-dünyadən ayaq tutduqca qaç,
Nə qıza, nə oğula, nə dusta, nə yarə bax!
Vaqifa, göz yum, cahanın baxma xubü ziştinə,
Üz çevir ali-əbayə, Əhmədi-Muxtarə bax!

## TARİXİ VƏ ƏFSANƏVİ ADLAR

Ağa Məhəmməd şah Qacar (1742-1797) – Həsən xan Qacarın oğludur. İranda Qacarlar sülaləsinin əsasını qoymuşdur. Nadirin ölümündən və hakimiyyət uğrunda gedən uzun vuruşmalardan sonra İranda taxt-taca sahib olub özünü şah elan etmişdir. 1795-ci ildə Qarabağa hücum etmişsə də, Şuşanı ala bilməmiş, Gürcüstan üzərinə gedərək Tiflisi dağıtmışdır. 1797-ci ildə yenidən Qarabağ üzərinə gələrkən Şuşanı almışdır. Ancaq burada gecə öz yatağında öldürülmüşdür.

*Ağası xan* – XVIII əsrdə Şirvanı idarə edən xandır. 1765-85-ci illər arasında xanlıq etmişdir. Sonuncu Şirvan xanı Mustafa xanın (1791-1820) atasıdır. 1767-ci ildə Fətəli xanla Hüseyn xan birləşib onun gözlərini çıxarırlar.

1770-ci ildə Fətəli xanla müharibədə məğlub olub ona təslim olmuş, oğlanları ilə Qubaya sürgün edilmişdir.

*Adolf Berje* – Vaqif və Zakirin əsərlərini ilk dəfə Leypsiqdə 1858-ci ildə çap etdirən şərqşünas.

*Arayatı* – indiki Füzuli rayonunda yerləşən bir kəndin adı.

*Bəsrə* – Iraqda məşhur liman şəhəri.

*Cavanşir* – Qarabağ xanlarının mənsub olduğu elin adıdır.

*Car tala* – Zaqatalada yer adı.

*Cəm* – Iranın əfsanəvi şahlarından olan Cəmşidin ləqəbi.

*Cönkətay* – Dağıstan şamxallarındandır.

*Valiyi*-Gürcüstan – II Irakli.

*Çaryar* – Məhəmməddən sonra gələn dörd xəlifə: Əbubəkr, Ömər, Osman və Əli.

*Çövkan* – Qədim Şərq oyunu. At üstündə əyri ağacla oynayırlar. Həmin ağac çövkan adlanır.

*Dar doqqaz* – Şəkidə yer adıdır.

*Dedunali* – Gürcü dilində məlikə deməkdir (İraklinin qadınına işarədir).

*Əbülhəsən* – Məhəmmədin əmisi oğlu Əlinin ləqəbidir. Həsənin atası deməkdir.

*Əhmədxan* – XVIII əsrdə yaşamış Azərbaycan xanlarındandır.

*Əlif* – Ərəb əlifbasının birinci hərfidir. Düz olduğundan Şərq şairləri gözəlin boyunu əlifə bənzədirlər.

*Ənnağı oğlu* – Vidadinin müasiridir.

*Əyyubağa* – Vidadinin oğludur. Cavan yaşında əlində tüfəng açılıb özünə dəymişdir.

*Fətəli xan* – (1733-1789) XVIII əsrdə Səlyanı, Dərbəndi, Qubanı idarə edən xandır. 1758-ci ildə atası Hüseynəli xanın yerində Quba xanı olmuşdur. Sonra Dərbənd xanlığını özünə tabe etmişdir. Nəhayət, Səlyanı almışdır. Bir sıra müharibələr etmiş, 1775-ci ildə II Yekaterinadan kömək almış, xanlığını möhkəmlətmişdir. Ərdəbil, Şahsevən xalqını özünə tabe etmiş, İran əleyhinə mübarizəyə başlamışdır. 1789-cu ildə 22 martda ölmüşdür.

*Gurgin xan* – II İraklinin oğlu.

*Gülüstan* – Qarabağda yer adı.

*Hatəm ağa* – Vidadinin müasiri.

*Hacı Əbdülqadir* – Şəki xanı Hüseyn xan Müştaqın əmisi 1779-cu ildə Qarabağ xanı İbrahim xan ilə müttəfiq olub öz qardaşı oğlu Hüseyn xanı öldürmüşdür. 1784-cü ildə Hüseyn xanın oğlu Məhəmməd xan Həsən tərəfindən öldürülmüşdür.

*Hacı xan* – Şəki hökmdarı Hacı Çələbi xanın nəvəsi.

*Hacı Məhəmməd* – Hacı Əbdülqadir ilə birlikdə 1779-cu ildə Hüseyn xanı öldürməkdə iştirak etmişdir. 1780-ci ildə Hacı Əbdülqadir tərəfindən həbsə alınmış, orada da ölmüşdür.

*Həzrət Qulu bəy* – Vidadinin müasiri.

*Həsən Kaşi* – XV əsrdə yaşamış İran şairi. Dini, şiə imamları mədh edən şeirlərilə məşhurdur.

*Həştü çar* – Səkkiz və dörd (12). Şiələrin müqəddəs hesab etdikləri 12 imama işarədir.

*Hüseyn xan Müştaq* – Şəki xanı Hacı Çələbinin nəvəsidir. Əmisi Ağakişi bəy öldürüldükdən sonra Quba xanı Fətəli xanın köməyi ilə 1759-cu ildə Şəki xanlığını əlinə almış, Fətəli xanla birləşib Şirvan hökmdarı Ağası xanı məğlub etmiş, Fətəli xanla da araları pozulmuşdur. 1779-cu ildə əmisi Hacı Əbdülqadir tərəfindən öldürülmüşdür. Hüseyn xan Müştaq qəzəl və qoşmalar yazan lirik şairdir. Vaqif və Vidadinin dostu olmuşdur. Vaqiflə deyişmələri var.

*Xızr* – Dirilik suyu içib əbədi yaşayan və darda qalanlara kömək edən əfsanəvi peyğəmbər.

*İbrahim xan* – XVIII əsrdə Qarabağ xanı olmuşdur (1760-1806). Atası Pənah xandan sonra ölkəni idarə etmişdir. İran təsirindən qurtarmaq, ölkəni müstəqil idarə etmək üçün Gürcüstan və Rusiya ilə ittifaq bağlamış, 1806-cı ildə Rusiya təbəəliyini qəbul etmişdir. 1806-cı ilin 2 iyulunda çar ordusu mayoru Lisaneviç tərəfindən Şuşada öldürülmüşdür. Kiçik oğlu Mehdiqulu xan onun yerinə təyin edilmişdir. Vaqif bu İbrahim xanın sarayında yaşamışdır.

*İmami-əzəm* – Əbu Hənifə.

*İrakli xan* – II Irakli – Şərqi Gürcüstanın padşahı (1744-1798).

*Keçəl Danı* – Vidadinin qarabağlı müasiri.

*Kövsər* – Dini əfsanəyə görə cənnətdə bir bulağın adıdır.

*Qəl'ə, Qala* – Şuşa şəhərinin xalq arasında işlənən adı.

*Qızılbaş* – Şiə.

*Quşçu Namazəli* – Vidadinin müasiri.

*Livan* – Gürcüstan knyazı II Iraklinin oğlu.

*Maliki* – İslamda məzhəbdir. Bu məzhəbin əsasını
Malik qoyduğundan bu adla şöhrətlənmişdir.

*Mehdi ağa* – Vidadinin müasiri.

*Məhəmməd ağa* – Vidadinin oğlu.

*Müştaq* – Şəki xanı Hüseyn xanın şeirdə işlətdiyi təxəllüs.

*Ne'man* – Hənəfi məzhəbinin əsasını qoyan Əbu *Hənifə İmami* – əzəmin adıdır.

N*əhavənd* – Şəhər adıdır.

*Nun* – Ərəb əlifbasındakı bu hərfə qədim şairlər gözəlin qaşını bənzətmişlər.

*Osman* – III xəlifə.

*Ömər* – II xəlifə.

*Rəfi oğlu* – Vidadinin müasiri.

*Rum* – Kiçik Asiyaya verilən ad.

*Sarı Çobanoğlu* – Vaqifin dostu.

*Sevan* – Göyçə gölünün ikinci adı.

*Səməndər* – Şərq əfsanəsinə görə odda yaşayan əfsanəvi bir quş.

*Süleyman* – Qədim yəhudi dini tarixində peyğəmbər və qüdrətli hökmdar kimi göstərilir. Bədii ədəbiyyatda qüdrətli hökmdar rəmzi kimi işlənir.

*Şafei* – İslamda məzhəb.

*Şam* – Məşhur Dəməşq şəhərinin adı.

*Şəmkirli Dəli Qazi* – Şəmkir qazisi.

*Tavad* – Gürcü knyazı.

*Tumas* – Indiki Füzuli rayonunda yerləşən bir kəndin adıdır.

*Tumaslı Dəli Kazım* – Vidadinin müasiri.

*Ümmə Xan* – Avar xanı (1774-1801) Fətəli xanla müharibə aparmış İbrahim xanın qohumu və dostu olmuşdur.

*Vaxtan* – VI (1675-1735) – Gürcüstan padşahı.

*Vərqa* – Yaxın Şərqdə "Vərqa və Gülşa" mövzusunda

yazılmış poemaların əsas qəhrəmanı. Şeirdə qoçaq, vəfalı aşiq rəmzi kimi işlənir.

*Yusif* – Yusifi-Kən'an Tövratda əfsanə qəhrəmanlarındandır. Burada göstərilir ki, Yusifin qardaşları onu quyuya salır, tacirlər Yusifi tapıb Misirdə satır, Misir əzizinin qadını Züleyxa ona vurulur, sonra Yusifə böhtan atıb həbsə saldırır, daha sonra Yusif həbsdən qurtarıb Züleyxa ilə evlənir və nəhayət, atasının görüşünə gəlir. Şərq ədəbiyyatında Yusifi-Kənan gözəllik simvolu, əlçatmaz məşuq əvəzində işlədilir.

*Zəkat* – İslamda dini vergidir. Hər kəs qazancının ondan birini hökumətə verməli idi. Guya fəqirlərə paylanırmış.

*Züleyxa* – Dini rəvayətlərdə Yusifi satın alan Misir əzizinin arvadıdır. Əfsanədə onun Yusifi sevdiyi və ona ərə getdiyi göstərilir. Bu əfsanə əsasında Şərqdə bir sıra "Yusif və Züleyxa" əsərləri yazılmışdır. Şərq ədəbiyyatında Züleyxa gözəl qadın obrazı kimi işlədilir.

*Zünnureyn* – Ərəb xəlifəsi Osmanın ləqəbi.

## LÜĞƏT

### A

*Al* – qırmızı; hiylə; nəsil
*Amac* – hədəf, nişanə
*Ariz* – üz, ərizə verən
*Asi* – üsyan edən, günahkar
*Aşüftəhal* – pərişan

### B

*Bab* – qapı; fəsil, hissə
*Bak* – qorxu
*Bavər etmək* – inanmaq
*Bəh*r – dəniz; şeir ölçüsü
*Bəhri-bəla* – bəla dənizi
*Bərhəm* – qarışıq
*Bəsa* – çox
*Bəstə* – bağlı
*Bəzm* – məclis
*Bidar* – oyaq
*Bidirəng* – yubanmadan, təxirsiz
*Bixovfü bim* – qorxusuz
*Bim* – qorxu
*Bimar* – xəstə
*Binəmək* – duzsuz, duz-çörək qədri bilməyən

*Binüsrət* – sonsuz, ucsuz-bucaqsız
*Bisərü saman* – var-dövlətsiz; dünya
*Bizəban* – dilsiz

**C**

*Cahangərd* – dünyanı dolanan səyyah
*Cüda* – ayrı

**D**

*Danla* – sabah
*Dəhan* – ağız
*Dəhr* – zaman
*Dəhri-bipayan* – sonsuz zaman
*Dəmi* – bir zaman
*Dəndan* – diş
*Dərban* – qapıçı
*Didə* – göz
*Dilfikar* – ürəyi dərdli
*Dun* – aşağı,alçaq
*Duzəx* – cəhənnəm
*Dürc* – sandıqça

**Ə**

*Əbru* – qaş

*Əbru-kaman* – qaşı yay
*Əbsəm* – lal
*Ə'da* – düşmən
*Ə'da fikan* – düşmən yıxan
*Əhli-beyt* – ev əhli; arvad-uşaq
*Əhli-ürfan* – bilik əhli
*Əkabir* – böyüklər
*Əqran* – yaxınlar, dostlar
*Əqval* – sözlər
*Ərbabi-nam* – ad sahibi
*Ərseyi-rif'ət* – ucalıq meydanı
*Əşk* – göz yaşı
*Əşrar* – yaman adamlar, pis şeylər
*Ətba* – təbəqələr
*Ə'zəm* – çox böyük
Əz*im* – böyük

**F**

*Fərar* – qaçmaq
*Fərxənd*ə – şad
*Fərrux* – uğurlu, şad, mübarək
*Fərzanə* – bilici, alim
F*ərzənd* – övlad
*Filmaz*i – keçmişdəki kimi
*Fütüvvət* – cavanmərdlik

**G**

*Giryə* – ağlamaq
*Giryan* – ağlar,gözü yaşlı
*Göftar* – danışıq
*Guş* – qulaq
*Gül'üzar*– gül yanaqlı
*Güruhi-naci* – nicat verən tayfa

**H**

*Hərgiz* – heç zaman
*Həsən* – gözəl
*Həşəm* – qulluqçu, nökər
*Həştü çar* – səkkiz və dörd; on iki (12 imam)
*Həzar* – min; bülbül
*Hikməti-yəzdan* – Allahın hikməti

**X**

*Xaki-pay* – ayaq torpağı
*Xavər* – günçıxan
*Xəndanliqa* – gülərüzlü
*Xoşnüma* – xoşsifət
*Xunxar* – qaniçən
*Xunriz* – qan tökən

*Xurşid* – günəş

İ

*İntiqal etdi* – keçdi
*İrəm* – cənnət
*İzzü rif'ət* – əzizlik və ucalıq

**K**

*Kan* – mədən
*Kinədar* – kinli
*Kuy* – küçə, astana

**Q**

*Qəhti-məaş* – yoxsuluq, aclıq
*Qəm səməndi* – qəm atı
*Qissə* – hekayə, əhvalat
*Qövs* – yay

**L**

*Laf* – söz
*Leylü nəhar* – gecə-gündüz
*Ləhvü ləəb* – əyləncə
*Liq*a – üz

**M**

*Mahtalət* – ayüzlü
*Mehr* – günəş
*Mehrü mah* – gün və ay
*Məcruh* – yaralı
*Mə'dəni-lütf* – ehsan mədəni, səxavətli
*Məxmur* – xumarlanmış
*Məqtul* – öldürülmüş
*Mənahi* – günahlar
*Mənbəi-cudü səxavət* – səxavət və kərəm mədəni, əliaçıq adam
*Mərdüm* – göz bəbəyi; insan
*Mə'va* – yurd, məskən
*Muy* – tük
M*übərra* – saf
*Mürdə* – ölü
*Müşəvvəş* – təşvişli, qarışıq

**N**

*Nacı* – nicat verən, qurtaran
*Naxun* – dırnaq
*Naim* – yuxuda olan
*Nar* – od
*Nari-düzəx* – cəhənnəm odu

*Navək* – ox
*Nəbi* – peyğəmbər
*Nəng* – ar, namus
*Nəsrin bədən* – yasəmən bədənli
*Nik* – yaxşı
*Nikübəd* – yaxşı-yaman
*Novnihal* – fidan, cavan ağac
*Novrəs* – yeniyetmə, cavan
*Nuri-bəsər* – göz işığı
*Nüsrət* – qələbə, kömək

**P**

*Payidar* – həmişəlik
*Payi-ləng* – axsaq
*Pesər* – oğul
*Peyvəstə* – arası kəsilmədən
*Pədər* – ata
*Pərva* – qorxu
*Pirəhən* – köynək
*Pürəmvac* – dalğalı

R

*Rağib* – rəğbət bəsləyən
*Rəhməti-qüfran* – Allahın mərhəməti
*Rəxti-tər* – təzə yorğan-döşək

*Rəncur* – əziyyətli, xəstə
*Rəncuri-eşq* – eşq xəstəsi
*Rəşk* – qısqanclıq
*Rubah* – tülkü
*Ruy* – üz

**S**

*Sahibi-tiğü qələm* – qılınc və qələm sahibi
*Satir* – örtən; Allah
*Səd* – yüz
*Səfşikə*n – cərgə pozan
*Səxtcigə*r – cigəri bərk
*Səmənd* – yaxşı qaçan at
*Səmi* – eşidən
*Səngdil* – daş ürək
*Sər* – baş
*Sərapa* – başdan-ayağa
*Sərvəri-dövran* – zəmanənin başçısı, hökmdarı
*Səvadi-şəb* – gecənin qaranlığı
*Sim* – gümüş
*Simvə*ş – gümüş kimi
*Sin* – qəbir
*Sirişk* – göz yaşı
*Sirişki-al* – qanlı göz yaşı
*Sud* – fayda
*Suza*n – yandırıcı

**Ş**

*Şəmşirzən* – qılınc vuran
*Şərm* – həya,ismət
*Şir-dil* – şir ürəkli
*Şirinsüxən* – şirinsözlü
*Şükufə* – çiçək
*Şürbi* – içki düşkünü

**T**

T*aban* – işıqlı
*Təb'i-həlim* – yumşaq təbiətli
*Təhsili-riza* – razılıq əldə etmək
*Təkəllüm* – danışıq
*Tənpərvər* – özünü bəsləyən
*Tərəb* – şadlıq
*Təvəhhü*m – qorxu
*Tiğ* – qılınc
*Tiri-müjgan* – kirpik oxu
*Tul* – uzun

**Y**

*Yaran* – dostlar
*Yəmin* – and

*Yəzdan* – Allah

**Z**

*Zəban* – dil
*Zəxm* – yara
*Zəxmi-naxun* – dırnaq yarası
*Zəhr* – öd
*Zən* – qadın
*Zənəxdan* – çənə
*Zülal* – saf, təmiz su
*Zünnar* – xaç

## KİTABIN İÇİNDƏKİLƏR

Ön söz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . ….… . .4

*Qoşma, gəraylı və bayatılar*

Dəli könül, gəl əylənmə qürbətdə . . . . . . . . . . . . . . . . . . …...15
Qatar-qatar olub qalxıb havaya . . . . . . . . . . . . . . . . . . . …. .17
Ey həmdəmim, gəl ki, gedər can durmaz . . . . . . . . . . . . …..18
Aylar, illər həsrətini çəkərdim . . . . . . . . . . . . . . . . . . …... . .19
Ey həmdəmim, səni qanə qərq eylər . . . . . . . . . . . . . . . .…… 20
Könül həsrət, can müntəzir, göz yolda . . . . . . . . . . . . . …... 21
Ey məni qınayan, ağlama, deyib . . . . . . . . . . . . . . . . . . …... 22
Seyri-gülşən etsən, ey gül’üzarım . . . . . . . . . . . . . . . . .…… 23
Ay ağalar, bir nigarın oduna . . . . . . . . . . . . . . . . . . . . …. .. 24
Çərxi-fələk zülmü ziyad eyləmiş . . . . . . . . . . . . . . . . . …... .25
Yenə yad eylədim keçən günləri . . . . . . . . . . . . . . . . . …... .26
Ey fələk, əlindən dad etməyimmi . . . . . . . . . . . . . . . . . …... .27
Gecə-gündüz oda düşüb yanaram . . . . . . . . . . . . . . . . . …... .28
Yenə bir leylivəş yarə dil verdik . . . . . . . . . . . . . . . . . …... ..29
Xəstə düşdüm, gələn yoxdur üstümə . . . . . . . . . . . . . . …... .. 30
Ey dəhanı şəkər, ləbləri badə! . . . . . . . . . . . . . . . . . . …... . .32
Səba, əhvalımı bir-bir . . . . . . . . . . . . . . . . . . . . . . . . . …... ..34
Könül səbrü qərar etməz . . . . . . . . . . . . . . . . . . . . . . . …... .. 35
Vaqif, nə tez sənəmlərdən əl çəkdin . . . . . . . . . . . . . . …... 37
Bayatılar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . ….. . . . ..40

*Qəzəl və müxəmməslər*

Hər səhər bad əsər, arizi-cananə dəyər . . . . . . . . . . . . . . . . ..43
Bilirsiz, Vaqifa, kim şövqimiz didarə çoxdandır . . . ……. 44
Sən tək, ey gül, demə gül gülzarə gəlmiş, gəlməmiş …… 45
Necə göz sən tək gözəl dünyada görmüş, görməmiş .. ……46
Sanma, ey dust, sən tək afət canə olmuş, olmamış . ……... 47
Nigara, zövqi-hüsnündən ki, hərdəm ittifaq artar . . …….. 48
Ey səba, gəl bir xəbər ver canə, canan xandadır? . . …….. 49
Mənə bir şuxü şirin dilrüba bir pirəhən tikmiş... . . . ……. 50
Gərçi yüz min aləm içrə var yarından cüda... . . . . . . …… 51
Deyibsiz yə'ni gəlləm gəldi bir belə xəbər, Vaqif!.. …….. 52
Tutma, ey sahib-nəzər, məndən nəzər, divaniyəm... …….. 53
Ölüm həqdəndir, əmma növcavan ölmək nə müşküldür …..54
Ər libasın geyə hər rənglə zən, mərd olmaz . . . . . . ……. ..56
Ah-ah, ey çərxiqəddar, ah, ey, bədruzigar! . . . . . . ……... 57
Şəhdabi-ləbin sağəri-peymanə tək, ey dust!.. . . . . ……... 58
Yanar cismim bu gün atəşlərə canü cigərdən çox . . . …….59
Həbibim, ta səni mən sevmişəm əşraf arasında . . . ……. 60
Yanan eşq atəşinə qəm yeməz ol nardən artıq . . . . ……... 61
Ey badi-səba, məndən ol yarə salam eylə! . . . . . . ……… 62
Şəha, müddət cahanı mən də gəzdim, dərbədər gördüm….. 63
Söylə canana, səba, halım pərişan oldu gəl . . . . . . …...64
Gəl, ey vəhdət qəzalı, sən bu səhradən nə istərsən? …….. 65
Yenə naşad könlüm buldu yüz yerdən məlal, ağlar . …….. 66
Nə müddətdir gözüm rahindədir, yarım... . . . . . . . ……....67
Yarəb, bu gedən sərvi-sərəfraz kimindir? . . . . . . ……. 68

Novruzi-bahar oldu, canan tazətər oldu . . . . . . . . . . …….. 69
Ah kim, gör neylədi bu gərdişi-dövran bu gün . . . . …….. 70
Gəl çəkmə cahan qeydini sən, can belə qalmaz . . . . ……. .72

Müsibətnamə (Gəl, könül, bir ibrət al
bu gərdişi-dövranə bax...) . . . . . . . . . . . . . . . . . . . . . . . ….74
Vaqiflə müşairə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . ... 81
Maddeyi-tarixlər . . . . . . . . . . . . . . . . . . . . . . . . . .. …104
Izahlar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . ... .105
Tarixi və əfsanəvi adlar . . . . . . . . . . . . . . . . . . . . . . …...108
Lüğət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . … .114

## ________*Milli Kitabxana*________

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Aslan Almasov*

Korrektor: *Pərvanə Məmmədova*

Yığılmağa verilmişdir 20.05.2004.
Çapa imzalanmışdır 22.12.2004.
Formatı 60x90 $^{1}/_{32}$. Fiziki çap vərəqi 4.
Ofset çap üsulu. Tirajı 25000. Sifariş 218.
Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.